


ISCEMR 2022

QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURUN İQTİSADİ İNKİŞAFINDA İNVESTİSİYALARIN ROLU

ISCEMR 2022

IV İQTİSADİYYAT VƏ İDARƏETMƏ SAHƏSİNDƏ TƏDQİQATÇILARIN BEYNƏLXALQ ELMİ KONFRANSI

# Qarabağ və Şərqi Zəngəzurun İqtisadi İnkişafında İnvestisiyaların Rolu



ISCEMR 2022

# Qarabağ və Şərqi Zəngəzurun İqtisadi İnkişafında İnvestisiyaların Rolu

AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ

ISCEMR

*Bu kitab, Azərbaycan Dövlət İqtisad Universitetinin Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin təşkilatçılığı ilə baş tutan IV İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransı çərçivəsində Pasha Holding Şirkətlər Qrupunun dəstəyi ilə Qarabağın yenidən qurulması və inkişafı ilə bağlı göndərilmiş məqalələr əsasında hazırlanmış, 44 günlük Vətən Müharibəsində canından keçmiş qəhrəman şəhidlərimizin əziz xatirəsinə həsr olunur.*

PASHA Holding



"...Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər".

***Azərbaycan Respublikasının Prezidenti,***
***Silahlı Qüvvələrin Ali Baş Komandanı***
***İlham Əliyev***

**LAYİHƏ RƏHBƏRİ**
*i.ü.f.d., dos. Fariz S. Əhmədov*

**ELMİ VƏ BƏDİİ REDAKTORLAR**
*i.e.d., prof. Yaşar A. Kəlbiyev*
*i.ü.f.d., dos. Aytən T. Hüseynli*
*i.ü.f.d., dos. Suqra İ. Hümbətova*
*i.ü.f.d., dos. Kəmalə A. Nəcəfova*
*i.ü.f.d., dos. Samirə O. Şamxalova*
*i.ü.f.d. Cəbrayıl X. Vəliyev*

**KORREKTOR VƏ DİZAYNERLƏR**
*İlkin M. Məmmədov*
*Mirlazım D. Dadaşov*
*Jalə F. Həmzəyeva*
*Əli S. Həsənov*

MÜNDƏRİCAT

GİRİŞ 8

1.İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ DAVAMLI İNKİŞAF MƏQSƏDLİ İNVESTİSİYA EHTİYACLARININ ANALİZİ 10
*i.ü.f.d. Səfərli Elmir*
*Hüseynov Qeyrət*

2.İNVESTİSİYA SİYASƏTİNİN DÖVLƏTİN İQTİSADİYYATINDA ROLU VƏ QARABAĞDA TƏTBİQİ İSTİQAMƏTLƏRİ 24
*Dos. Kaşıyeva Flora*
*Abbasov Nurlan*

3.KARABAĞ'IN YENİDEN İNŞASI VE KALKINMASININ FİNANSMANININ ANALİZİ 43
*Ağazade Hülya*

4.MEASURES AND MECHANISMS FOR INVESTMENT INTENSIFICATION ACTIVITY IN THE REGIONS LIBERATED AFTER PATRIOTIC WAR 57
*Assoc.prof. Aghayeva Konul*
*Mirzayeva Zahra*

MÜNDƏRİCAT


**5.SHUSHA AS THE MAIN GEOGRAPHICAL LOCATION IN THE STRATEGIC DEVELOPMENT OF KARABAKH** 86

*Dr. Mammadov Anar*
*Gurbanli Nisa*

**6.WAYS OF INCREASING INVESTMENT ATTRACTIVENESS OF THE KARABAKH ECONOMIC REGION** 107

*Dr. Mammadov Anar*
*Ahmadzada Narmin*

**7.QARABAĞ REGİONUNDA İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN BƏRPASI VƏ YENİDƏN QURULMASI : XARİCİ İNVESTİSİYALARIN CƏLB OLUNMASININ STİMULLAŞDIRICI VASİTƏLƏRİ** 121

*i.e.d., prof. Kərimli İrşad*
*Möhsünlü Rafiq*
*Kərimov Ramal*

**8.НАПРАВЛЕНИЯ РЕКОНСТРУКЦИИ ИНФРАСТРУКТУРЫ НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ АЗЕРБАЙДЖАНА** 156

*к.э.н. доц. Гамидова Лала*
*Рамазанова Динара*

MÜNDƏRİCAT

**9.İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İQTİSADİ DƏSTƏK TƏDBİRLƏRİ VƏ VERGİTUTMA MEXANİZMİNİN TƏTBİQİ MƏSƏLƏLƏRİ** 183
*i.ü.f.d., dos. Hümbətova Suqra*
*Güləliyev Tofiq*

**10.ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN İNVESTİSİYA POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ** 208
*Vəliyev Orxan*

# GİRİŞ

Azərbaycan 44 günlük Vətən müharibəsindəki şanlı Qələbədən sonra regionda qüdrətli geoiqtisadi güc mərkəzlərindən birinə çevrilməkdədir. Hazırda bölgədə yaranmış yeni iqtisadi və siyasi konfiqurasiya dünya ictimaiyyətinin, o cümlədən beynəlxalq iqtisadi təşkilatların diqqət mərkəzindədir. Bu, bir daha təsdiq edir ki, Prezident İlham Əliyevin qətiyyəti, əzmkarlığı və müdrik sərkərdəliyi ilə ərazi bütövlüyümüzün təmin edilməsi Azərbaycanın beynəlxalq arenadakı nüfuzunu qat-qat yüksəldib. İşğaldan azad olunmuş bölgələrimizdə əlverişli iqtisadi rejim formalaşdırılmaqla biznesin yaranması və inkişaf etdirilməsi üçün əlverişli investisiya mühiti yaradılmağa çalışılır. İnvestisiya iqlimini şərtləndirən 4 istiqamətli (siyasi, iqtisadi, hüquqi və sosial) amillər normal hala gəlməkdədir. Xarici investisiyanın prioritetləri dəqiq müəyyənləşdirilir, Qarabağ və Şərqi Zəngəzurun siyasi və hüquqi tanıtımında aydın mövqeyi olan dövlətləri təmsil edən şirkətlərin bu regionun biznes subyekti olmasına daha çox önəm verilir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Sərəncamının 2.1-ci bəndində nəzərdə tutulmuş, hazırda son müzakirələr mərhələsində olan “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda iqtisadıyyatın şaxələnməsinə və investisiyaların cəlb olunmasına vergi siyasətinin effektiv dəstəyinin təmin edilməsi və investisiya mühitinin daha da yaxşılaşdırılması üçün bir sıra tədbirlər nəzərdə tutulur: İşğaldan azad edilmiş ərazilərin inkişafı üçün vergi təşviqlərinin tətbiq olunması; Yeni istehsal sahələrinin qurulmasına görə kapital qoyuluşlarına uyğun olaraq mənfəət vergisinə güzəştlərin verilməsi; Turizmin inkişafı üçün vergi təşviqlərinin verilməsi və s.

Bölgədə bəzi layihələrə artıq başlanılıb. Hazırda əsas məqsəd işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Artıq böyük tikinti-quruculuq işlərinə start verilib. Hazırda Qarabağda beynəlxalq hava limanı, avtomagistrallar tikilir, dəmir yolu xətləri inşa edilir. Bu ilin sonuna kimi bütün Qarabağ ərazisi üçün enerji təchizatı 100 faiz tamamlanacaq. Digər əhəmiyyətli layihələr də gerçəkləşdiriləcək. Azərbaycan bu məsələlərdə də Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa güvənir. Layihələrdən ən mühümü Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçəcək. Beləliklə, Azərbaycanın əsas hissəsi ilə ölkəmizin ayrılmaz hissəsi Naxçıvan Muxtar Respublikasını və Türkiyəni birləşdirəcək yeni nəqliyyat dəhlizi yaranacaq. Bu

layihə regionda nəqliyyat sektorunda yeni imkanlar açacaq. Prezident İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının üzv dövlətlərini də Zəngəzur dəhlizindən faydalanmağa dəvət edib.

İqtisadi baxımdan da Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoymaq üçün kifayət qədər səbəblər var. Belə ki, burada bol miqdarda enerji mənbələri, yeraltı qiymətli dəmir filizləri, tikinti materialları üçün xammal yataqlar və sair mövcuddur. Elə bu və digər sadalanmayan üstünlüklər səbəbindəndir ki, artıq bir neçə xarici ölkə- Türkiyə, İran, Pakistan və sair kimi ölkələrlə yanaşı, yerli şirkətlər, nəhəng korporasiyalar Qarabağa investisiya qoymaqda maraqlı olduğunu bildirib.

Bir neçə sahənin inkişafı üçün isə artıq baza işlərinə başlanılıb. Belə ki, yaxın vaxtlarda Araz çayı üzərində “Xudafərin” və “Qız qalası” adlı iki su elektrik stansiyasının inşa edilməsi planlaşdırılıb və bununla işğaldan azad edilən ərazilərin elektrik enerjisi ilə fasiləsiz təminatına imkan yaranacaq. Şübhə yoxdur ki, yerli enerji tələbatının ödənilməsi və ölkənin enerji ixrac potensialının artması baxımından hər iki stansiyanın əhəmiyyətli yeri olacaq.

Təbii sərvətlərin, faydalı qazıntıların işlənilməsi investisiyaların qoyuluşu baxımından böyük perspektiv vəd edir. Son illərdə Azərbaycanın qeyri-neft ixracında qızıl mühüm yer tutur. Həm dünya bazarlarında qızılın qiymətinin yüksəlməsi, həm də bu sahədəki şirkətlərin müasir istehsal texnologiyalarına sahib olması onu deməyə əsas verir ki, işğaldan azad edilmiş ərazilərdə qızıl yataqlarının istismarı yaxın illərdə Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcəkdir.

Kitab üçün seçilən məqalələrin əsas mövzu istiqamətləri, Qarabağda və Şərqi Zəngəzurda davamlı inkişaf məqsədli investisiya ehtiyaclarının analizi, investisiya siyasətinin dövlətin iqtisadiyyatında rolu, bu ərazilərə xarici investisiyaların cəlb olunması, stimullaşdırılması yolları və investisiya potensialının qiymətləndirilməsi ilə əlaqədardır.

Ümumilikdə kitab Azərbaycan, ingilis və rus dilləri olmaq üzrə 3 dildə 10 elmi-tədqiqat ağırlıqlı məqalələr toplusu şəklindədir. Bu mövzuda tədqiqatların gələcəkdə də davam etdiriləcəyi şübhəsiz vacibdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadiyyatının bərpası üçün bölgəyə investisiyanın cəlb edilməsi, ölkə iqtisadiyyatına inteqrasiyası və əlverişli investisiya mühitinin formalaşdırılması və inkişafı istiqamətli tədbirlərin həyata keçirilməsi məcmusunda kitabımızın faydalı olacağına ümid edir və buna inanırıq.

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ DAVAMLI İNKİŞAF MƏQSƏDLİ İNVESTİSİYA EHTİYACLARININ ANALİZİ

**i.ü.f.d. Səfərli Elmir**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Hüseynov Qeyrət**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## Xülasə

Bu məqalədə işğaldan azad edilmiş ərazilərdə investisiya ehtiyaclarının analizi  mövzusunda elmi və müasir təhlillər aparılmışdır. İşğaldan azad edilən ərazilərimizin yenidən bərpası, Azərbaycan iqtisadiyyatına olan təsiri, kənd təsərrüfatının muasir texnologiya ilə təmin edilməsi, dayanıqlı inkişaf proqramları, turizmin inkişafı üçün tarixi memarlıq abidlərinin yenidən bərpası, əhalinin yenidən bu ərazilərə köçürülməsi Azərbaycan iqtisadiyyatını sürətləndirəcəkdir. İşğaldan azad edilmiş ərazilərimizdə, yeni yaradılacaq olan nəqliyyat-logistika dəhlizləri Azərbaycan iqtisadiyyatına müsbət təsiri fundament hesab edilir.

Qarabağın zəngin təbii sərvətlərinin olması xüsusilə də aqrar, emal və hasilat sənayesinin inkişaf edəcəyinin açıq nümunəsidir. Məqalədə daha çox Qarabağ regionunda hansı sahələrə investisiya cəlb etmək və cəlb olunan investisiya ehtiyaclarının alizindən bəhs edilir.

***Açar sözlər***: *Qarabağ regionu, işğaldan azad edilmiş ərazilər, investisiya ehtiyacları.*

## Giriş

Vətəndaşların bu yaxınlarda işğaldan azad edilmiş ərazilərə geniş miqyasda köçürülməsi, onların eyni vaxtda iqtisadi fəaliyyətə yenidən inteqrasiyası Azərbaycanın 2030-cu il Strategiyasında əksini tapmış beş milli prioritetindən biridir. Azərbaycan ən həssas qrupların - bir milyon məcburi köçkünün (məcburi köçkün) və qaçqınların ehtiyaclarına xüsusi diqqət yetirməklə, "ağıllı şəhərlərə" və "ağıllı kəndlərə" çevirmək üçün bütün resursları səfərbər etmək niyyətindədir.

Tədqiqat işinin təhlili zamanı sistemli yanaşma və PESTLE analiz metodlarından istifadə olunmuşdur. Belə ki, PESTLE analizi ilə tədqiqat işi haqqında iqtisadi dəlillər toplanmış, araşdırılmış və sistemləşdirilmişdir. Bu təhlil metodu ilə olduqca sıx əlaqəlidir. Beləliklə məqalədə həm elmi analiz, həm məntiqi analiz, həm də sorğu metodlarından istifadə edilmişdir.

## İşğaldan azad edilmiş ərazilərimizin iqtisadi inkişafını sürətləndirmək üçün görülən tədbirlər.

Artıq Zəngilan rayonunda ilk "ağıllı kənd"in tikintisi üzrə layihənin icrasına başlanılıb. Bu lahiyədə beş komponent əsasında aparılacaq: mənzil, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji. BMT-nin proqnozlarına görə, 2030-cu ilə qədər Azərbaycan əhalisinin sayı 600 min nəfər artacaqdır. Böyük iqtisadi və sosial layihələrə əsaslanan mütərəqqi şəhərsalma siyasəti də regionda vəziyyəti yaxşılaşdırması üçün əsas hesab edilir. Münaqişədən sonrakı yenidənqurma mürəkkəb, əmək tutumlu və kapital tutumlu proses olduğundan Azərbaycan hakimiyyəti bu prosesə effektiv idarəetmə sistemi qurmaqla başlayıb. İşğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli üçün əsas dövlət strukturlarının işini sinxronlaşdırmaq üçün əlaqələndirmə qərargahı yaradılıb.

Qarabağda xüsusilə 6 sahənin ciddi inkişafı proqnozlaşdırılır. Bunlar, turizm, nəqliyyat və logistika, mədən sənayesi, kənd təsərrüfatı, emal sənayesi və yaşıl enerji. Bu sahələri inkişaf etdirmək üçün müxtəlif lahiyələr və tədbirlər görüləcəkdir.

**Qarabağ regionun enerji potensialı.** Böyük neft ehtiyatlarına malik Azərbaycan Qarabağı "yaşıl enerji zonası" elan edib. Azərbaycanın yerli su ehtiyatlarının dörddə biri, yəni ildə təxminən 2,56 milyard kubmetr su

Qarabağda formalaşır. Rayonun Tərtər, Bazarçay (Bərgüşadçay), Həkəri və digər kiçik çaylar kimi əsas su arteriyaları böyük hidroenergetika potensialına malikdir. Qarabağın günəş enerjisi potensialı 3000-4000 MVt, külək enerjisi potensialı isə 300-500 MVt qiymətləndirilir. İranla birgə tikilən Xudafərin SES və Qız Qalası SES-in ümumi gücü 280 MVt, Kəlbəcər və Laçın rayonlarındakı SES-lərin gücü isə 120 MVt olacaq ki, bu da regiona “yaşıl enerji”dən arxalanmağa imkan verəcək.

Bundan əlavə, Kəlbəcər rayonunda 3093 min m3, Şuşada isə 412 m3 termal su ehtiyatları yaşıl energetikanın inkişafı üçün əhəmiyyətli potensiala malikdir. Burada əsas məsələ təkcə yaşıl mənbələrdən enerji əldə etmək deyil, həm də enerjinin ötürülməsi, paylanması və istehlakı üçün ən səmərəli və ağıllı sistemlərdən istifadə etməkdir. Hökumətin Azərbaycanın yaşıl zona elan etdiyi Qarabağda ətraf mühitin mühafizəsinin gücləndirilməsinə diqqət yetirməsi ölkənin qlobal iqlim dəyişikliyi çağırışına ən tutarlı cavabıdır.

Azərbaycan rəhbərliyinin Qarabağ bölgəsini bərpa etmək planlarının mərkəzində onun bərpa olunan mənbələrdən (SES) enerji istehsalı mərkəzinə çevrilməsi dayanır. Belə ki, yerli təbiət su ehtiyatları ilə zəngindir ki, bu da su elektrik stansiyalarından aktiv istifadəyə təkan verir. Bu gün ölkədə mövcud, lakin qəzalı vəziyyətdə olan SES-lər yenidən qurulur, yenilənir, Qarabağda su elektrik stansiyalarının sayını artırmaq niyyətindədir.

Beynəlxalq şirkətlərin regionun enerji sisteminə olan investisiya maraqları olduqca çoxdur. Bundan əlavə, rayonun günəş və külək enerjisi istehsalı mərkəzinə çevrilməsi nəzərdə tutulur. Belə ki, Azərbaycan və Böyük Britaniyanın BP şirkəti Zəngilan-Cəbrayıl zonasında günəş enerjisindən istifadə layihəsini müzakirə edir. Azərbaycanın Energetika Nazirliyi ilə BP arasında bu sahədə 240 MVt gücündə günəş elektrik stansiyasının tikintisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsi sahəsində əməkdaşlıq haqqında İcra Sazişi imzalanıb.

Ümumiyyətlə, Qarabağ regionu nəhəng “yaşıl enerji” potensialına malikdir ki, bu da bəzi hesablamalara görə, təxminən 4500 meqavat təşkil edir. Günəş enerjisinin ən böyük potensialı Cəbrayıl və Zəngilan rayonlarında, Laçın və Kəlbəcər rayonları isə külək enerjisi üçün zəngin potensiala malikdir.

Bildiyiniz kimi, xarici enerji şirkətləri son illərdə “yaşıl enerji” meylinin fonunda bərpa olunan enerji mənbələrinə sərmayə qoymağa və karbohidrogen layihələrindən uzaqlaşmağa üstünlük verirlər. Eyni BP şirkəti, məsələn, 2050-

ci ilə qədər layihələrində sıfır karbohidrogen emissiyasına nail olmaq, yəni faktiki olaraq "yaşıl enerji"yə keçmək niyyətindədir. Məhz buna görə də beynəlxalq enerji şirkətləri Qarabağda bərpa olunan enerji mənbələrindən istifadə gözləntiləri ilə infrastrukturu artıq qurulacaq enerji layihələrinə sərmayə yatırmağa maraq göstərir.

**Qarabağda sənayə sahəsinin inkişafı.** Azərbaycan Qarabağ bölgəsini sənaye və sənaye parklarının yaradılması mərkəzi elan etdi. Əslində, ölkənin ümumi ixracında qeyri-neft sektorunun payını 50%-ə çatdırmağa çalışan respublika üçün işğaldan azad edilmiş ərazilərdə sənaye parklarının yaradılması xüsusi əhəmiyyət kəsb edir. Sənaye sektorunda işləyən xarici sahibkarlar şirkətlərin fəaliyyətinin qanunla tənzimləndiyi və dəqiq qaydaların olduğu sənaye parklarına və azad iqtisadi zonalara investisiya qoymağa üstünlük verirlər. Bundan əlavə, Qarabağda sənaye parklarının yaradılması güzəştli kreditlərin ayrılmasını və biznesin aparılması üçün sadələşdirilmiş şəraitin yaradılmasını nəzərdə tutur ki, bu da xarici kapital üçün investisiya yeri seçimində həmişə prioritet olub.

**Kənd təsərrüfatının inkişafı.** Kənd təsərrüfatı işğaldan azad edilmiş torpaqlarda xarici investorlar üçün daha bir mühüm sahəyə çevriləcək. Qarabağın münbit torpağı, zəngin təbii, o cümlədən su ehtiyatları işğaldan azad edilmiş ərazilərdə məhsuldarlığı artıracaq. Qeyd edək ki, rayonda kənd təsərrüfatı ilə yanaşı, emal sənayesinin də genişləndirilməsi nəzərdə tutulur. Yəni, Azərbaycan kənd təsərrüfatı məhsullarının istehsalını genişləndirməklə həm də hazır, emal olunmuş kənd təsərrüfatı məhsulları istehsal edə biləcək ki, bu da aqrar sektorun ixrac dəyərini artıracaq.

Burada emal sənayesi üçün infrastrukturun yaradılacağı sənaye parklarını bir daha xatırlatmaq yerinə düşər ki, bu da kənd təsərrüfatı məhsullarını logistik xərclər olmadan dərhal yerlərdə emal etməyə imkan verəcək. Məhz buna görə də bir çox xarici şirkətlər, o cümlədən İsrail, Belarus və Rusiya müəssisələri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aqroşəhərlər və kənd kommunaları tikməyə hazır olduqlarını bəyan ediblər.

**Turizm sektorunun Qarabağda inkişaf tədbirləri**. Bu gün Azərbaycan turizm infrastrukturunun çatışmazlığı problemi ilə üz-üzədir, lakin istər yerli, istərsə də xarici şirkətlər artıq regionda turizmi bərpa etmək, mehmanxana, restoran və digər zəruri obyektlərin yaradılması planlarını hazırlayırlar və

şübhə yoxdur ki, bir müddət sonra Şəbəkənin filialları isə Qarabağın məşhur otel və restoranlarında fəaliyyət göstərəcək.

Ümumiyyətlə Qarabağ regionunda təhlükəsizlik təmin olunduqdan sonra bu ərazilərdə hansı təsərrüfat sahələrinin daha yaxşı inkişafı ilə bağlı 130 nəfər arasında sorğu keçirilmişdir. Sorğuda iştirak edənlərin 91 faizi ali təhsili almış 22-40 yaş aralığında olan şəxslərdir. Sorğunun məqsədi müxtəlif fikirlər almaq və həmin fikirləri qrafik formatında əsaslandırmaqdır. Sorğu iştirakçılarının əksəriyyəti Qarabağda sosial-iqtisadi vəziyyət normal olduğu halda həmin ərazilərdə yaşamağa hazır olduqlarını bildirdilər. Sorğu əsasında aşağıdakı nəticələr alınmışdır.

**Qrafik 1: Qarabağ iqtisadi rayonlarında hansı təsərrüfat sahəsinin inkişaf etdirilməsinə ehtiyac vardır ?" sualına sorğu iştirakçılarının cavabları**




**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir.

Qarabağ iqtisadi rayonlarında hansı təsərrüfat sahəsinin inkişaf etdirilməsinə ehtiyac vardır?" sualına sorğu iştirakçılarının 30%(37 nəfər) kənd təsərrüfatı sahəsi üzrə; 24%-i(30 nəfər) turizm sektoru üzrə; 22%-i(28 nəfər) logistika-nəqliyyat sahəsi üzrə; 5%-i(7 nəfər) xidmət sektorları üzrə; 13%-i(19 nəfər) sənaye sahələri üzrə; 6%-i(9 nəfər) tikinti sektoru üzrə sahibkarlıq fəaliyyət üçün işğaldan azad olunan ərazilərdə öz işlərini qurmaq üçün daha yaxşı mühit olduğunu qeyd etmişlər.

Sorğu nəticəsinə əsasən belə demək olar ki əhalinin əksəriyyəti Qarabağ regionunda kənd təsərrüfatının daha yaxşı investisiya sahəsi olacağını

düşünürlər. Qarabağ regionunda istər təbii resursların mövcudluğu, istərsə də əlverişli iqlim şəraiti kənd təsərrüfatının inkişafına zəmin yaradır.

Son zamanlar ölkəmizdə qeyri-neft sektorunun inkişafına daha da önəm verilir. Bu da regionda bu sahəyə olan gözləntilərin daha çox olmasına gətiririb çıxarmışdır. Ölkəmizdə kənd təsərrüfatı sahələrinin inkişafı üçün müxtəlif tədbirlər və proqramlar qəbul edilmişdir. Nümunə olaraq "Regionların inkişafına dair" inkişaf proqramını göstərmək olar. Bütün bunları nəzərə alaraq deyə bilərik ki ölkəmizin əsas məqsədlərindən biri iqtisadiyyatın şaxələndirilməsi üçün kənd təsərrüfatının inkişaf etdirilməsidir.

"İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının hansı sektorlarını inkişaf etdirmək olar?" sualına sorğu iştirakçıları öz fikirlərini bildiriblər. Sorğuya əsasən Qarabağ regionunda həm əkinçiliyin, həm də heyvandarlığın inkişafı üçün şərait vardır. Əlavə olaraq regionda aqrar sahəni inkişaf etdirmək olar. Sorğu 110 nəfər arasında keçirilmişdir.

Belə ki sorğu iştirakçılarının fikrincə kənd təsərrüfatının aşağıdakı sahələrini inkişaf etdirmək olar:

**Cədvəl 1: İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının hansı sektorlarını inkişaf etdirmək olar?" sualına sorğu iştirakçılarının cavabları.**

| Sahə | Faiz göstəricisi |
|---|---|
| Bostan təsərrüfatı | 12% |
| Meyvəçilik təsərrüfatı | 16% |
| Meşə təsərrüfatı | 10% |
| Heyvandarlıq təsərrüfatı | 25% |
| Suvarma əkinçiliyi | 19% |
| Texniki əhəmiyyətli bitkilərin təsərrüfatı | 18% |

**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir.

"İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının hansı sektorlarını inkişaf etdirmək olar?" sualına sorğu iştirakçılarının cavabları heyvandarlıq üzrə 25%(27 nəfər); suvarma əkinçiyi üzrə 19%(21 nəfər) ; meşə təsərrüfatı üzrə 10%(11 nəfər); meyvəçilik təsərrüfatı üzrə 16%(17 nəfər); texniki əhəmiyyətli bitkilərin təsərrüfatı (taxıl,pambıq,tütün)- 18%(20 nəfər); bostançılıq təsərrüfatı üzrə 12%(14 nəfər) olmuşdur.

Sorğu nəticələri aşağıda qrafik formatında göstərilmişdir.

**Qrafik 2: Qarabağ iqtisadi rayonlarında hansı təsərrüfat sahəsinin inkişaf etdirilməsinə ehtiyac vardır ?" sualına sorğu iştirakçılarının cavabları.**




**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir.

Qeyd etdiyimiz kimi, işğaldan azad olunmuş ərazilərimizdə müxtəlif sənaye sahələrinin qurulması və müxtəlif biznes subyektlərinin fəaliyyətə keçməsi üçün əlverişli şərait vardır. Sorğu iştirakçılarının fikrinə görə regionda sənayesin həm hasilat həm də emal sahələri üzrə müxtəlif sektorlarını inkişaf etdirmək mümkündür. Sorğu iştirakçılarının qeydlərinə uyğun olaraq regionda qida sənayesini, maşınqayırma, kimya sənayesini inkişaf etdirmək mümkündür. Qeyd olunan sahələrin inkişafı ölkəmizdə qeyri-neft sektorunun artmasına gətirib çıxaracağını söyləmişlərdir.

Qeyd olunan sənaye sahələrini daha yaxşı inkişaf etdirmək üçün regiondakı təbii resurslardan səmərəli və düzgün istifadə etmək lazımdır.

## Metodologiya

Regionda sahibkarlıq faəliyyəti ilə məşğul olacaq yerli və xarici investorların qarşılaşma ehtimalı olan mənfi və müsbət faktorların qruplaşdırmaq üçün PESTLE analizi tətbiq edilmişdir.

**Cədvəl 2: Regionda fəaliyyət göstərəcək olan sahibkarların qarşılaşa bilmə ehtimalı olan mənfi və müsbət faktorlar**

| Müsbət üstünlüklər | Mənfi üstünlüklər |
|---|---|
| Political (Siyasi) | |
| Türkiyə, İran və Gürcüstan ilə bağlanmalı olan çoxsaylı ticarət müqavilələrinin olması ehtimalı. | Regionda ermənilərin hələ də yaşamasına verilən icazələr.<br>Ermənistanla atəşkəs pozuntularının baş verməsi ehtimalı. |
| Economy (İqtisadi) | |
| Yerli və xarici investorlar üçün region təbii sərvətlərinin əlverişli olması.<br>Bu regiondan keçməsi ehtimalı olan yeni nəqliyyat-logistika dəhlizlərinin olması. | Regionda olan təbii sərvətlərin ermənilər tərəfindən düzgün olmayan səmərəli və qənaətsiz istifadəsi. |
| Social (Sosial) | |
| Regionda yaşıyacaq olan əhalinin layiqli yaşamını təmin etmək və yeni xidmət sahələrinin tikilməsi. | Regionun Ermənistanla yaxınlığı həmin ərazilərdə təhlükəli yaşam şəraitinin olmasına gətirib çıxarma ehtimalı. |
| Technology (Texnoloji) | |
| Regionun bərpasında ağıllı kənd və şəhər layihələrinin tikintisi, muasir və yeni texnologiyaların inkişafına gətirib çıxaracaqdır. | Bu günə kimi bu regionda texnologiyanın inkişaf etməməsi. |
| Legal (Hüquqi) | |
| Yeni sahibkarlar üçün ilk başlarda vergi güzəştlərinin edilməsi ehtimalı. | Regiondan bu günə kimi hər hansı bir məhkəmə və hüquqi prosedurların tətbiqinin olmaması |
| Ecology (Ekoloji) | |
| Regionda su kanallarının və anbarların olması.<br>Regionun əlverişli iqlim şəraitinin olması. | Su anbarlarının və kanalların ermənilər tərəfindən çirkləndirilməsi |

**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir.

PESTLE analizindən belə nəticəyə gəlmək olar ki, bu regionda sahibkarlıq fəaliyyəti ilə məşğul olacaq investorların qarşılaşma ehtimalı ən çox siyasi və

sosial risklər olacaqdır. Bu analizin məqsədi odur ki mənfi faktorları tapmaq və bu faktorları minimuma endirmək və aradan qaldırmaqdır. Müsbət faktorları daha da genişləndirərək ölkə iqtisadiyyatının inkişafını artırmaq olar.

## Qarabağ regionuna olan beynəlxalq investisiya maraqları.

Qarabağın yenidən qurulmasına dövlət və qeyri-dövlət investisiyalarının cəlb edilməsi davamlı iqtisadi artımın əsasını qoyur. Dövlət investisiyaları Qarabağda katalizator rolunu oynayacaq və qeyri-dövlət investisiyalarına zəmin yaradacaq. Artıq Türkiyə, İtaliya, Böyük Britaniya, Pakistan və İsraildən Qarabağın bərpasına yönəlmiş sərmayə axını başlayıb. Qarabağda mədənçıxarma, metallurgiya, qida emalı, trikotaj, turizm, kənd təsərrüfatı, yaşıl energetika sahələrinin inkişafı üçün böyük potensial var.

Qarabağ münaqişəsinin həlli regional iqtisadi-ticarət və nəqliyyat-kommunikasiya əlaqələrinin canlanmasına yol açır. Regionda, eləcə də Cənubi Qafqaz ölkələrində iqtisadi fəallığın artması Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişafında maraqlı olan bütün tərəflərin maraqlarına xidmət edir. Naxçıvan dəhlizində regional layihələr bir-birini tamamlayacaq. Naxçıvan dəhlizi dənizə çıxışı olmayan Muxtar Respublikanın təcrid olunmasına son qoyacaq, eyni zamanda Asiya ilə Avropa arasında daha sıx əlaqəni təmin edəcək. Azərbaycan regionun istifadə olunmamış potensialına əsaslanaraq Qarabağı inkişaf, sülh və təhlükəsizlik platformasına çevirir. Azərbaycan da tolerantlıq və multikulturalizm nümunəsi olaraq son müharibə və işğalın dağıdıcı təsirlərindən sonra Qarabağın xristian və müsəlman irsinin bərpası planlarını açıqlayıb.

Artıq Azərbaycan hökuməti işğaldan azad edilmiş torpaqların bərpası üçün "Böyük Qayıdış" adlı genişmiqyaslı işlərə başlayıb. Bu ərazilərin bərpası və yenidən qurulması üçün 2022- ci ildə dövlət büdcəsindən 1,3 milyard dollar vəsait ayrılıb, Füzulidə yeni avtomobil yolunun və hava limanının tikintisinin təməli artıq qoyulub. Tərtər rayonunun Talış və Suqovuşan kəndlərində yeni yolların çəkilişinə başlanılıb. Bu il Qarabağ bölgəsinin müxtəlif yerlərində silsilə iqtisadi və mədəni tədbirlərin təşkili təklif olunur.

Ölkənin hakimiyyət orqanları müharibədən zərər çəkmiş bölgənin bərpası üçün həm milli, həm də xarici sərmayələrə ümid edir. Hökumət regionun yenidən qurulmasına birbaşa xarici sərmayələri cəlb etmək üçün hüquqi

prosedurları sadələşdirməyə, qanunvericiliyə dəyişiklik etməyə və sifarişli tikinti materiallarının baza qiymətlərini yeniləməyə çalışır. Tikinti tenderlərində baza qiymətinin podratçı təşkilat tərəfindən təklif olunduğu Türkiyə modelinin tətbiq ediləcəyi bildirilir.

Artıq bir neçə ölkə işğaldan azad edilmiş ərazilərin bərpasına dəstək verməkdə maraqlı olduğunu bildirib. Türkiyə şirkətləri Füzuli-Şuşa yeni avtomobil yolunu tikir. Azərbaycan İnnovasiyalar Agentliyi Türkiyənin aparıcı texnoparkı GOSB ilə Qarabağ bölgəsində birgə yüksək texnologiyalar parkının yaradılmasına dair anlaşma memorandumu imzalayıb.

Türkiyənin dövlət bankı olan "Ziraat Bank" Azərbaycanın Şuşa şəhərində filial açmaq niyyətindədir. Azərbaycandakı bank rəsmiləri bildiriblər ki, daxili prosedurlar tamamlanır və Azərbaycan hakimiyyətindən lazımi icazələr alındıqdan sonra Şuşada filial açılacaq. Bank nümayəndələrinin sözlərinə görə, açılış tarixi Bakının qərarından asılıdır. Bu arada Türkiyənin aparıcı sahibkarlarını birləşdirən TÜMKİAD dərnəyinin sədri işğaldan azad edilmiş torpaqlara 50 milyon dollar sərmayə qoymağı planlaşdırdığını açıqlayıb.Tekstil istehsalı milyonlarla dollarlıq investisiyalar üçün əsas sahə kimi müəyyən edilib.

Böyük Britaniya hökuməti də Qarabağ regionunun texnoloji inkişafına dəstək vermək öhdəliyinə sadiqdir. Krallığın Azərbaycandakı səfiri Ceyms Şarp Azərbaycan hökumətinin nümayəndələri ilə regionda "ağıllı şəhərlər"in yaradılmasını müzakirə edib.

İtaliyanın "Ansaldo Energia" şirkəti ilə dekabr ayında Qarabağ bölgəsindəki dörd yarımstansiya üçün avadanlıqların tədarükü üçün 6 milyon dollarlıq müqavilə imzalanıb. Hər birinin gücü 110 kilovat olan yarımstansiyalar erməni işğalından azad edilmiş Ağdam, Füzuli, Qubadlı və Kəlbəcər rayonlarında yerləşdiriləcək. Avadanlıqların çatdırılması martın sonunda başa çatdırılmalı, obyektlər isə 2021-ci il iyunun sonunda tikilib istifadəyə veriləcəkdir.

Macarıstan hökuməti də yenidənqurma işlərinə qoşulmaq istəyir. Ötən həftə ölkənin xarici işlər və ticarət naziri Peter Siyarto Azərbaycanın əmək naziri ilə onlayn görüş keçirib. Macarıstan şirkətlərinin yenidənqurma layihələrinə cəlb edilməsi variantlarını müzakirə ediblər. Siyartonun sözlərinə görə, milli Eksim Bank artıq işğaldan azad edilmiş Azərbaycan torpaqlarının bərpasında iştirak etmək niyyətində olan Macarıstan şirkətləri üçün 100 milyon dollar məbləğində kredit xətti açıb. Bundan əlavə, nazirin sözlərinə görə, Macarıstan

hökuməti müharibənin nəticələrini aradan qaldırmaq üçün vaxtilə işğal olunmuş ərazilərdə minalardan təmizləmə əməliyyatlarının aparılmasına kömək etmək üçün 25 min avro təklif edib (Kınık H. 2021).

KİV-in məlumatına görə, İsrail, Yaponiya və İran şirkətləri də yenidənqurma layihələrinə sərmayə qoymağa hazırdır. Azərbaycanın Energetika Nazirliyi bu yaxınlarda BMT, Aİ, BMT İnkişaf Proqramı, ABŞ Beynəlxalq İnkişaf Agentliyi, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyasının nümayəndələri ilə Qarabağ regionunda "yaşıl enerji zonası"nın yaradılmasını müzakirə edib.

Ermənistanın işğalından azad edilmiş Azərbaycan torpaqlarının bərpası ilə bağlı çoxdan gözlənilən layihələr bu gün ölkənin növbəti illərdə sosial-iqtisadi inkişafının əsas diqqət mərkəzindədir. Təbii ki, bunlar kifayət qədər maliyyə tutumlu proqramlardır ki, təkcə dövlətdən deyil, həm də özəl biznesdən milyardlarla dollar inyeksiya tələb olunur. Ancaq unidulmamalıdır ki, hər hansı bir investisiya öz nəticəsini verməli və gəlirli olmalıdır. Qarabağ layihələri bizim üçün mənəvi baxımdan nə qədər əziz olsa da, bu məsələdə istisna deyil. Təkcə yerli deyil, həm də beynəlxalq ekspertlər əmin edirlər ki, Qarabağda həyata keçirilməsi nəzərdə tutulan irimiqyaslı infrastruktur layihələri artıq 2022-ci ildə Azərbaycan iqtisadiyyatının yüksəlişini təmin edən amillərdən birinə çevriləcək .

Bildiyiniz kimi, 2021-ci ilin dövlət büdcəsində bu məqsədlər üçün 2,2 milyard manat və ya ÜDM-in 2,9 faizi nəzərdə tutulmuşdu və artıq bir sıra işlərə, xüsusən də infrastruktura start verilib. Eyni zamanda, xərclərin artmasına baxmayaraq, bu yaxınlarda beynəlxalq reytinq agentliyi S&P Global Ratings Azərbaycanın reytinqini "BB+" səviyyəsində təsdiq etməklə yanaşı, reytinqin proqnozunu "mənfi"dən "stabil"ə dəyişib. Müsbət dönüş məhz uzun illər ölkənin iqtisadi inkişafı üçün əsas risk hesab edilən Qarabağ münaqişəsinin həlli sayəsində baş verdi. İndi Azərbaycan işğaldan azad edilmiş əraziləri bütün iqtisadi potensialı ilə öz balansına qaytardığı üçün risk məsələsi həmişəlik öz həllini tapıb. S&P ekspertləri bildiriblər ki, "stabil proqnoz Azərbaycan, Ermənistan və Rusiya arasında Qarabağda atəşkəs razılaşmasına ümumilikdə riayət ediləcəyi ilə bağlı gözləntilərimizi əks etdirir ki, bu da müharibə ilə bağlı təhlükəsizlik, maliyyə sektoru və ödəniş balansı risklərinin azaldılmasına kömək edəcək".

Deməli, Qarabağda həyata keçirilən yeni layihələr sayəsində Azərbaycanda iqtisadi inkişaf o qədər artmalıdır ki, 2020-ci ildə ÜDM-in kəskin azalmasından sonra bu ildən 2,1% artım gözlənilir, sonra isə göstərici sabitləşməlidir.

Məsələ burasındadır ki, rayonda ilkin infrastruktur bərpa olunan kimi çox yaxşı rentabelli layihələrin - kənd təsərrüfatı, turizm, mədənçıxarma, tikinti materiallarının istehsalı və üstəlik yükdaşımalarının həyata keçirilməsinə başlanılacaq. Maliyyə iqtisadiyyatına emissiyalar pandemiya səbəbindən donmuş iqtisadi fəaliyyəti tədricən işə salacaq və ixrac edilə bilən məhsulların həcmi artırılacaqdır. Üstəlik, önəmlisi odur ki, bütün bu layihələr, təbii ki, qeyri-neft sektoruna aiddir, ona görə də bu il nəzəri olaraq, biz onun həm dövlət büdcəsinin gəlir hissəsində, həm də ÜDM-də payının əhəmiyyətli dərəcədə artmasının şahidi olmalıyıq. Baş nazir Əli Əsədovun qeyd etdiyi kimi, cari il üçün hökumətin prioritetləri Qarabağ bölgəsində turizm marşrutlarının inkişafı, aqrar sahədə layihələr, müasir suvarma sistemlərinin quraşdırılması; su elektrik stansiyalarının tikintisi imkanlarının öyrənilməsi.

Xatırladaq ki, bir müddət əvvəl İnnovasiyalar Agentliyi Türkiyənin ən böyük sənaye bölgələrindən birində yerləşən və 130 texnologiya şirkətinə dəstək verən GOSB texnoparkı ilə memorandum imzalayaraq bu yolda ilk addımı atıb. Memorandum Qarabağda Yüksək Texnologiyalar Parkının yaradılmasını nəzərdə tutur.

80 milyon əhalisi olan İrandan, eləcə də Naxçıvan vasitəsilə 83 milyonluq Türkiyə bazarına məhsul çıxarmaq imkanını nəzərə alsaq, potensial investorlar üçün Qarabağ bölgəsi çox cəlbedici ola bilər.

Yenidənqurma proqramında iştirak etmək niyyətində olan Macarıstan şirkətləri üçün 100 milyon ABŞ dolları məbləğində kredit xətti açan Macarıstanın EximBank-ı son nümunədir. Bundan başqa, Macarıstan minalardan təmizləmə işləri üçün 25 min avro qrant da təklif edib. Böyük Britaniya da analoji yardım göstərməyə hazırdır. Türkiyə, Rusiya, İran və digər dost ölkələr Qarabağdakı layihələrdə iştirak etməyə hazır olduqlarını bildiriblər.

Bir sözlə, Qarabağ müharibəsində qələbənin qeyd olunmasından çox az zaman keçir və hətta Azərbaycanın özündə də Ermənistanın işğalından azad edilmiş ərazilərlə bağlı Strateji Fəaliyyət Planı hazırlanır və artıq biznes təklifləri də daxil olur. Vahid konsepsiya hazırlandıqdan və prioritet layihələrin

konkret siyahısı müəyyən edildikdən sonra investisiya təşəbbüslərinin əhatə dairəsi genişləndiriləcək.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycan Respublikası öz ərazi bütövlüyünü bərpa edərək böyük tarixi qələbəyə nail olmuşdur. Bu qələbədən sonra hökümətin əsas məsələsi azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və inkişafı üçün kapital axınları tapmaqdır. Kapital axınları tapmaq üçün isə həm yerli, həm də xarici investorların diqqətini çəkməkdir. Əhalinin bərpa olunmuş ərazilərə qayıtması regionun iqtisadi inkişafının ilkin təkanı olacaqdır. Regionu firavan ərazilərdən birinə çevirmək üçün ilk növbədə bu ərazilərdə əhalinin təhlükəsizliyini təmin etmək və xidmət sahələrinin keyfiyyətini artırmaq lazımdır. Regionda nəqliyyat-logistika dəhlizlərinin yaradılması nəinki regionun, ümumi olaraq Azərbaycan Respublikasının inkişafını sürətləndirəcəkdir. Regionun inkişafı üçün aşağıdakı addımların atılması vacib hesab edilir.

- Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpasını sürətləndirmək. Ağıllı şəhər və ağıllı kənd lahiyələrinin sayını artırmaq.
- Qarabağda külək və günəş elektrik stansiyalarını qurmaq. Bu elektrik stansiyalarının qurulması ciddi investisiya axının olmasına səbəb olacaqdır.
- Qarabağda turizm sahəsini inkişaf etdirmək. Turizmi inkişaf etdirmək üçün ilk növbədə bu ərazilərimizdə olan tarixi və memarlıq abidələrini bərpa etmək lazımdır. Qarabağa turist axının olmasa xarici və yerli investorların bu ərazilərdə hotel və restoran şəbəkələrinin tikilməsinə investisiya yatıracaqlarının gözlətisidir. Əlavə olaraq bu ərazilərdə müalicə əhəmiyyətli yataqlar və resurslar vardır. Bu yataqlarının və resursların yenidən bərpası tibbi turizmin də inkişafına səbəb olcaqdır.
- Regionun iqlim şəraitinin çox əlverişli olması, kənd təsərrüfatının və heyvandarlığın inkişafına səbəb olacaqdır. Bu ərazilərdə kənd təsərrüfatını son texnologiyalar ilə inkişaf etdirmək lazımdır. Son texnologiyalar ilə inkişaf əkinçilikdən və heyvandarlıqdan əldə olunan məhsulların ixrac olunmasına gətirib çıxaracaqlardır.

- Qarabağda mədən sənayesini inkişaf etdirmək lazımdır. Burada yetəri qədər sənaye əhəmiyyətli yataqlar vardır, xüsusilə filiz yataqlarının olmasıdır. Kəlbəcərdə olan Zod qızıl yatağında yeni mədənlərin tikintisi daha çox xarici investorlarını diqqətini çəkəcəkdir. Dünya bazarında qızılın qiymətinin qalxmasıda bu sahəyə olan marağı daha da artıracaqdır. Regionda tikinti materialları üçün də yataqlar vardır.

## ƏDƏBİYYAT SİYAHISI


1. Təbriz Əliyev "Azərbaycanın işğ aldan azad edilən ərazilərində sahibkarlığın mütərəqqi menecment formaları əsasında inkişaf istiqamətləri", İqtisadi Artım və İctimai Rifah, 2021, №1, S.10.

2. Qafqaz Universiteti (2010). "Qarabağ: Bildiklərimiz və bilmədiklərimiz", Bakı, "Qafqaz Universiteti nəşriyyatı ", 283 səh.

3. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı" Dövlət Proqramı.

4. Fikrətzadə F.F., Hacıyeva S.İ., (2020), İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması Kənd təsərrüfatının iqtisadiyyatı № 4 (34), səh. 27-33.

5. Çingiz Vəliyev (18 Fevral 2021) "Azad olunmuş ərazilərdə kənd təsərrüfatı sürətlə inkişaf edəcək" , Xalq qəzeti, S 3.

6. "İşğaldan azad edilən ərazilərin kənd təsərrüfatı potensialı"- https://vergiler.az/news/economy/11103.html.

7. İbrahimov İ.H. (2021), Erməni terroru və işğaldan azad edilmiş ərazilərdə ekoloji vəziyyətİqtisadiyyat.16-22 dekabr, № 50, səh. 28 http://economics.com.az/index.php/tedbirler /yenilikl-r/item/2030-azaerbaydzan-n-ishzhhaldan-azad-edilaen-aerazilaerindae-sahibkarl-zhh-n-inkishaf istizhamaetlaeri.html.

8. İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2021.

# İNVESTİSİYA SİYASƏTİNİN DÖVLƏTİN İQTİSADİYYATINDA ROLU VƏ QARABAĞDA TƏTBİQİ İSTİQAMƏTLƏRİ

**Dos. Kaşıyeva Flora**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Abbasov Nurlan**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## Xülasə

Hər bir ölkənin iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsində mühüm rola malik olan amillərdən biri də investisiya qoyuluşlarıdır. Dövlətin yeritdiyi iqtisadi siyasət isə investisiya qoyuluşlarının başlıca istiqamətlərini müəyyən edir. **İnkişaf etməkdə olan ölkələr üçün investisiya siyasəti iqtisadi inkişaf və makroiqtisadi sabitliyin təmin olunması istiqamətində prioritet rol oynayır.**

Tədqiqat işi təhlil, sistemli yanaşma, məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir.Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasında investisiyanın dövlətin iqtisadiyyatında rolu və əhəmiyyətinin araşdırılması, ölkə iqtisadiyyatına göstərə biləcəyi təsirlərin müəyyən edilməsi, investisiya siyasətinin Qarabağa tətbiqi istiqamətlərinin araşdırılması və bu çərçivədə görülməsi nəzərdə tutulan tədbirlərin təhlilini əhatə edir. Şanlı qələbəmizdən dərhal sonra başlayan və hələ də davam edən işlər nəticəsində Qarabağın infrastrukturunun bərpa edilməsi ilə yeni sahələrin yaradılması, inkişafı təmin ediləcəkdir ki, bu da öz növbəsində həm bu bölgənin, həm də ümumən ölkə iqtisadiyyatının dayanıqlı inkişafının başlıca meyarlarından biri olacaqdır. Məqalədə investisiyanın mahiyyəti, onun formalaşmasına təsir edən amillər, ölkənin investisiya cəlbediciliyini şərtləndirən faktorlar, investisiya fəaliyyətinin subyektləri və obyektləri, ölkə iqtisadiyyatı üçün önəmli olan istehsal artımının təmin edilməsi baxımından mühüm hesab olunan investisiya mühiti tədqiq olunmuşdur.

Ölkənin investisiya potensialının baş vermiş siyasi və sosial-iqtisadi dəyişikliklərlə bağlı olması, bu cür imkanların isə respublikamızın müstəqil dövlət kimi təşəkkül tapmasından sonra yaranması, bazar iqtisadiyyatına keçdikdən sonra daha da inkişaf etməsi, qeyri-neft sektorunun da çox geniş imkanlara malik olması məsələləri də tədqiqatda yer almışdır.

Məqalədə həmçinin, uğurlu iqtisadi siyasət nəticəsində, xüsusilə son 10 il ərzində Azərbaycanın sosial-iqtisadi həyatında baş verən irimiqyaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri və ölkəmizin iqtisadi qüdrətinin daha da artması, bunun da öz növbəsində xarici investisiya potensialına geniş şərait yaratması və ölkə iqtisadiyyatına əhəmiyyətli təsiri kimi məsələlər öz əksini tapmışdır.

Məqalədə müəyyən illər aralığında həm daxili, həm də xarici investisiya qoyuluşları barədə məlumat verilmiş, artım və azalma tendensiyası üzrə təhlillər aparılmış və bu informasiyaların qrafik təsviri öz əksini tapmışdır.

***Açar sözlər:*** *investisiya, iqtisadiyyat, iqtisadi inkişaf, uğurlu iqtisadi siyasət*

## Giriş

İnvestisiya maddi, qeyri-maddi və maliyyə ehtiyatlarının əldə olunması üçün mövcud resursların istifadə olunmasını səciyyələndirir. Daha geniş mənada isə investisiyalar iqtisadi artımı, həmçinin ölkədə iqtisadi inkişafın əldə olunması məqsədi ilə zəruri maliyyə ehtiyatlarının formalaşması mexanizmini təmin edən iqtisadi təsir kimi də başa düşülə bilər (İsayev, 2011). Başqa sözlə ifadə etsək, investisiya, gəlir və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə yatırılan maliyyə vəsaitindən, həmçinin, maddi və intellektual sərvətlərdən ibarətdir. Bu anlayış pul vəsaitlərinin onların dəyərinin saxlanması və artırılması, gəlirin təmin olunması məqsədilə yerləşdirilməsini nəzərdə tutur. İnvestisiyalar istehsalın inkişaf etdirilməsi üçün istehsal edilmiş məhsulun bir hissəsinin istifadə edilməsi, səhmlərin, istiqrazların alınması, pul vəsaitlərinin bankda əmanət kimi yerləşdirilməsi və ya onların “insan kapitalına” yönəldilməsi ilə bağlı proseslərin məcmusunu özündə ehtiva edir (Əliyev, 2008).

İqtisadi nəzəriyyədən bildiyimiz kimi, dövlət iqtisadi subyektlərin xüsusi vəsaitlərinin bir hissəsini vergilər şəklində əldə edərək onların fəaliyyətlərinin gəlirlilik səviyyəsinə və investisiya fəaliyyətinə birbaşa təsir göstərə bilir. Ölkəmizin mövcud inkişaf səviyyəsi, vergi sistemində aparılmaqda olan əsaslı modernləşmə, vergi prosedurlarının yerinə yetirilməsində müasir informasiya texnologiyalarından istifadənin artırılması və digər bu kimi amillər vergilərin iqtisadi tənzimləmə imkanlarını artırmış, vergi siyasətinin iqtisadi proseslərə

təsirini çox gücləndirmişdir. Belə şəraitdə investisiya mühitinin daha da inkişaf etdirilməsi üçün vergi sisteminin mövcud imkanlarının, onun inkişaf istiqamətlərinin müəyyən edilməsi həm elmi, həm də praktiki baxımdan mühüm aktual məsələlərdəndir (Məmmədov Ə.C., Seyfullayev İ.Z., 2013).

İnvestisiya siyasətinin ölkənin gələcəyinin formalaşmasında əhəmiyyətli rolu olduğundan, dövlətlər investisiya prosesini stimullaşdırmaqda və inkişaf etdirməkdə maraqlıdırlar (Əzizova, 2012).

Əlverişli investisiya mühitinin formalaşması mexanizmi dövlətin investisiya siyasətindən, eyni zamanda, investisiya obyektləri olan müəssisələrin fəaliyyəti nəticəsindən asılıdır (Əzizova G, 2012).

İnvestisiya mühitinin formalaşmasına bir sıra amillər təsir edir. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

**Şəkil 1: İnvestisiya mühitinin formalaşmasına təsir edən amillər**




**Mənbə:** Aslanov H.H. (2012), Xarici investisiyaların cəlb edilməsi və onlara təsir edən amillərin təhlili. Bakı, Dövlət Universitetinin xəbərləri, Sosial-siyasi elmlər seriyası, №1

Siyasi amilin əhatə etdiyi məsələlərə ölkənin geoiqtisadi mövqeyini, ölkənin yeritdiyi siyasəti, ölkədə mövcud olan siyasi sabitliyi, dövlətin iqtisadiyyata müdaxiləsi səviyyəsini misal göstərmək olar.

İnvestisiya mühitinə təsir göstərə bilən iqtisadi amilə iqtisadiyyatın ümumi vəziyyəti, inflyasiyanın səviyyəsi, milli valyuta kursunun sabitliyi, vergi sistemi, pul-kredit sistemi, gömrük xidməti, faiz dərəcəsi, iqtisadi fəaliyyətin sərbəstliyi, daxili bazarın səviyyəsi, daxili infrastrukturun inkişaf səviyyəsi və s. daxildir.

Sosial amillər qrupuna cəmiyyət üzvlərinin ideoloji bilik səviyyəsi, ölkə əhalisinin xarici kapitala və şəxsi mülkiyyətə münasibəti, təşkilatçılıq qabiliyyəti və s. aiddir.

Qlobal amillər qrupuna isə beynəlxalq səviyyədə gedən proseslər, siyasi konfliktlər, iqtisadi böhranlar, coğrafi dəyişikliklərin və təbii hadisələrin təsirləri daxildir və bunlar da ölkənin investisiya mühitinə təsir göstərə bilir (Aslanov H.H. 2012).

Milli gəlir ilə investisiya yatırımları arasında çox əhəmiyyətli bir əlaqə vardır ki, bu "multiplikator" effekti adlanır. Bu anlayışı milli gəlirin artımının investisiya məbləğindəki artımdan asılılığını ifadə edən əmsal kimi izah edə bilərik. Bu əmsal o zaman artır ki, istehlakçılar öz gəlirlərindəki artımdan istehlak həcminin artırılması üçün istifadə edirlər. Əksinə olaraq, istehlak xərclərinin azaldılaraq əsas hədəfin yığıma yönəlməsi nəticəsində isə bu əmsal azalır.

2019-cu ildə 190 ölkənin biznes mühitinin qiymətləndirildiyi Dünya Bankının nüfuzlu "Doing Business" hesabatında Azərbaycan 25-ci yerdə mövqe tutmuşdur. Bu hesabatda Azərbaycan Avropa və Mərkəzi Asiya regionu üzrə ən islahatçı üç ölkədən biri kimi təqdim edilib. 2020-ci il hesabatında isə Azərbaycan ən islahatçı 20 ölkə sırasına daxil edilib.

**Bu gün müstəqil dövlətimiz özünün ən uğurlu dövrünü yaşayır. Çoxəsrlik tarixində Azərbaycan heç vaxt indiki qədər güclü olmamışdır. Bu gün Azərbaycanda aparılan islahatlar xalqımızın gələcək inkişafını təmin edir (https://www.economy.gov.az).**

*Azərbaycan Respublikasının Prezidenti* **İlham Əliyevin** *"*Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" F*ərmanında* qeyd olunur ki, Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətidir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi inkişaf strategiyası qısa zaman ərzində böyük nailiyyətlərin əldə edilməsinə imkan vermiş, uzunmüddətli dövr üçün düşünülmüş iqtisadi siyasət ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin yaratmışdır. Nəticədə geniş sahibkarlar təbəqəsi formalaşmış, ölkənin sosial-iqtisadi inkişafında özəl sektorun rolu daha da artmış və ümumdünya iqtisadi sisteminə inteqrasiya sahəsində mühüm nailiyyətlər əldə olunmuşdur.

Ümumilli lider, Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi iqtisadi siyasət nəticəsində qapalı sosial-iqtisadi sistemi əvəzinə "açıq qapı" siyasətini həyata keçirildi ki, bu da xarici investisiya qoyuluşu baxımından stimullaşdırıcı rol oynayıb. İnvestorların hüquq və mənafelərinin müdafiə edilməsi, mülkiyyətin toxunulmazlığında, yerli və xarici sahibkarlara eyni, bərabər imkanların yaradılması bu istiqamətdə görülən işlərin əsas göstəricilərindəndir. "İnvestisiya fəaliyyəti haqqında", "Xarici investisiyaların qorunması haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunların və bir sıra normativ sənədlərin qəbulu məhz bu məsələlərə nə dərəcədə önəm verildiyini göstərir. Ölkəmizin zəngin neft ehtiyatları hər zaman xarici investorlar tərəfindən maraq dairəsində olmuşdur. 1994-cü il 20 sentyabrda "Əsrin müqaviləsi"nin bağlanması ilə iqtisadiyyatımız dünyaya inteqrasiya etmiş oldu. Ümumilikdə neft strategiyası ilə sürətlənən Azərbaycan iqtisadiyyatının inkişaf dinamikası qarşıdakı illərdə daha genişmiqyaslı şəkildə davam etdirildi (https://xalqqazeti.com/az/news/84044).

İkinci Qarabağ müharibəsində qazandığımız şanlı qələbəmizdən sonra qarşıda duran əhəmiyyətli məsələlərdən biri də işğaldan azad etdiyimiz rayonlarda infrastrukturun bərpası və bu bölgənin investisiya cəlbediciliyinin artırılmasıdır. Uzunmüddətli dövr üçün dayanıqlı inkişafı şərtləndirən ən başlıca amillərdən olan investisiya cəlbediciliyinin artırılması üçün bir sıra qarşıda duran vəzifələr vardır:

- İnvestorlar üçün əlverişli rəqabət mühitinin yaradılması;

- İnvestisiya fəaliyyətinin hüquqi-normativ bazasının inkişaf etdirilməsi;

- İnvestorların məlumatlandırılması sisteminin daha da təkmilləşdirilməsi.və.s

Ölkəmizdə investisiya siyasətinin prioritet istiqamətləri vardır. Bunlara qeyri-neft sektorunun da investisiya cəlbediciliyinin artırılması və investisiya layihələrinin Strateji Yol Xəritələri ilə müəyyən olunmuş sosial-iqtisadi inkişaf proqramlarına uyğunluğunun təmin edilməsi kimi məsələləri misal çəkə bilərik. Bundan başqa dövlət investisiyalarının elm tutumlu sahələrə istiqamətləndirilməsi, ölkədəki iqtisadi təhlükəsizliyinin təmin edilməsi, investisiya siyasətinin müasir inkişaf tendensiyalarına uyğulaşdırılması tədbirləri prioritet istiqamətlərdəndir. Beynəlxalq standartlara uyğunlaşdırılan mühasibat uçotu və auditor fəaliyyətinin inkişaf etdirilməsi də çox vacib məsələlərdən hesab edilir (https://economy.gov.az/article/investisiya-siyaseti/21347).

Cari ilin aprelin 12-də Prezident İlham Əliyev bu ilin I rübünün yekunlarına dair keçirilmiş müşavirədə giriş nitqində bildirmişdir ki, münaqişədən sonrakı dövrdə ölkəmizdə bütün nəzərdə tutulan planlar yerinə yetirilməkdədir. Prezident Cənab İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurda görülməsi nəzərdə tutulan işlər və planlar barədə məlumat vermişdir. Ölkə üzrə investisiya proqramı çərçivəsində nəzərdə tutulan işlər plan üzrə davam edir. Əhali tərəfindən aidiyyəti qurumlara vətəndaşlar tərəfindən müraciətlər daxil olur və bu müraciətlər hər biri diqqətlə nəzərdən keçirilir. Ikinci Qarabağ müharibəsindəki şanlı qələbəmiz ölkəmizə böyük maraq yaratmış və buna görə də burada biznes əlaqələri qurmaq istəyənlərin sayı kifayət qədər artmışdır. Beynəlxalq ictimaiyyətin ölkəmizə artan hörmət və marağını investisiya layihələrində görmək olur. Xarici sərmayedar tərəfindən tikilən 470 meqavat gücündə olan stansiyalar gələn il istismara veriləcək. Maliyyə naziri Samir Şərifov həmin müşavirədə qeyd etmişdirki, Qarabağın bərpası üçün dövlət büdcəsindən 2.2 milyard manat vəsait ayrılmışdır, birinci rüb ərzində 15 faizdən çox hissəsi artıq icra olunmuşdur. Cari il ərzində “Azərenerji” tərəfindən 5 elektrik stansiyası bərpa ediləcək və bu stansiyalar 27 meqavat gücə malik olacaq. Digər stansiyaların sahibkarlar tərəfindən bərpası və işlənməsi daha effektiv ola bilər. Bununla həm dövlətin xərc yükünü azaltmaq olar, həm də sahibkarlar üçün əlverişli investisiya kimi qiymətləndirilə bilər. Ölkəmizin digər bölgələri ilə işğaldan azad etdiyimiz bölgələr elektrik xətləri ilə birləşdirildiyinə görə bu rayonlarda istehsal ediləcək enerji ümumi sisteme aid ediləcək. Sahibkarlar üçün bu cür şərait olduqca maraqlı ola bilər. Bu proseslərlə İqtisadiyyat Nazirliyi və Prezident Administrasiyası məşğul olur və bir sıra təkliflər irəli sürülüb. Bərpası nəzərdə tutulan stansiyaların yerləri ilə əlaqəli sahibkarlara təqdimat keçirilməsi effektiv nəticə verə bilər. Bir sıra xarici şirkətlər Laçın və Kəlbəcərdə külək elektrik stansiyalarının inşası ilə əlaqədar müraciət edirlər. Bu işlərin icrası üçün həm xarici həm də yerli şirkətləri cəlb etmək lazımdır (https://www.sosial.gov.az/en/post_539234).

| Рост интереса к информационно-коммуникационным технологиям с целью привлечь новые вложения |

**Источник:** составлено автором на основе данных https://base.garant.ru/194365/, 2020

На социальную политику возложены комплексные задачи, заключающиеся в повышении степени удовлетворенности населения, росте показателей уровня долголетия, формировании здорового как

пожилого, так и молодого поколений. Строительство новой инфраструктуры в регионе и расширение уже существующей должны следовать основным задачам, содействуя их успешному выполнению. В расширение социальной инфраструктуры входит обеспечение оптимальных жилищных условий, предоставление качественного жилья, развитие окружающей человека урбанистической и сельской инфраструктуры, защита молодежи и пенсионеров, гарантия защищенности всех групп населения вне зависимости от возраста и национальной принадлежности. Благоприятные экологические условия также являются частью плана по расширению инфраструктуры. Поддержка производительности труда путем развития квалифицированного уровня кадров также можно отнести к направлениям расширения социальной инфраструктуры. Влияние социальной инфраструктуры на региональную экономику заключается и в том, что она позволяет обеспечить воспроизводство трудовых ресурсов основного ресурса экономики.

Беря во внимание указанные функции как результат эффективного развития социальной инфраструктуры Карабахского региона должны расшириться границы для развития человеческого капитала, укрепиться достойные условия жизнедеятельности и удовлетворяться различные потребности населения.

В качестве основных направлений развития социальной инфраструктуры освобожденных городов можно предложить следующие решения, предоставленные по отдельным направлениям социальной инфраструктуры. Итак, в области здравоохранения должны быть проведены следующие работы:

- совершенствование профилактики, диагностики и лечения социально значимых заболеваний
- оснащение лечебных учреждений
- современным медицинским оборудованием
- создание специализированных высокотехнологичных медицинских центров на основе частно-государственного партнерства

- развитие розничных фармацевтических предприятий в форме аптечных сетей.

В сфере социального обеспечения целесообразными являются меры:

- внедрить эффективные современные технологии по предоставлению социального сервиса
- обеспечить обязательной беспрерывной системой профессионального обучения кадров, трудящихся в структурах социального обслуживания
- модернизировать систему информационного обеспечения учреждений социального обслуживания

Для повышения занятности населения нужно уделить внимание развитию малого предпринимательства и стимулированию самозанятости населения путем предоставления льготных кредитов на развитие бизнеса.

С целью благоустройства жилищно-коммунального хозяйства нужно:

- предоставление малоимущим многодетным семьям жилья из государственного фонда
- улучшение технического и экологического состояния объектов жилищно-коммунального хозяйства.

## ВЫВОДЫ И ПРЕДЛОЖЕНИЯ

По результатам SWOT анализа Карабахского региона было бы логично определить разрушенные опустошенные города к слабым сторонам проведенного анализа, но несмотря на это, у нашей страны появилась новая возможность отстроить освобожденные города, беря за основу инновационные идеи стран Европы, Японии, Китая, одновременно привлекая в реконструкцию освобожденного региона инвестиции их крупных компаний и партнеров. В рамках анализа можно сделать вывод, что большинство проектов, осуществляемых и планируемых в Карабахе сводятся к использованию альтернативных источников энергии по

причине того, что ресурсы данного региона позволяют прибегнуть к данному направлению.

Так как социальная инфраструктура носит общественный характер и играет ключевую роль в обеспечении качества жизни людей, ее реконструкция и полномасштабное восстановление необходимы на освобожденных территориях, чтобы создать все необходимые условия для проживания и рабочего процесса наших граждан. При этом нужно помнить, что без элементов производственной инфраструктуры, крупных инвестиционных вложений, улучшения международных и торговых отношений добиться высоких результатов будет сложно. На основании изучения проблем и текущего положения в стране можно сделать следующие выводы:

- На данный момент в Азербайджане возрастает уровень урбанизации, который выражается в увеличении количества населения столицы нашего государства Баку. По данным комитета статистики на начало 2021 года, в Баку официально проживало 2 миллиона 300,5 тысячи человек, при этом данный показатель на 1 января 2018 года составлял 2 262,6 тыс. жителей. Освобождение оккупированных районов и строительство на их территориях промышленных предприятий, индустриальных парков, агро-центров могут решить проблему безработицы в столице и регионах, и обеспечить заработком часть населения, которое в ближайшем будущем вернется в свои родные края или переселится с целью открыть свой микро-бизнес и найти удовлетворяющую материальные потребности работу;

- Ключевой линией в совершенствовании инфраструктуры должно быть изучение и применение опыта развитых стран по использованию возобновляемых источников энергии. В первую очередь, ряд зарубежных предприятий заинтересован в инвестициях в отрасль зеленой энергии в Азербайджане, что в свою очередь способствует привлечению иностранной валюты и последних технологий, а также повысит количество подписанных соглашений и шансов более успешно диверсифицировать нашу экономику. Во-вторых, помимо экономического интереса, возрастет и культурный интерес к нашим богатым природой и историческим наследием землям;

- Требуется ускорить процесс разминирования освобожденных территорий и создать условия безопасной транспортной инфраструктуры, как сухопутной, так и авиаинфраструктуры.

- В области социальной инфраструктуры на данном этапе развития необходимо внедрить эффективные современные технологии по предоставлению социального сервиса, обратить внимание на техническое и экологическое состояние объектов жилищно-коммунального хозяйства, а также создать базу, основанную на информационных технологиях, для решения вопроса по безработице.

- Области инфраструктуры для инвестиций в постконфликтный период должны быть детально изучены и поэтапно расставлены по приоритетам. В процессе переселения граждан после обеспечения им начального уровня жизни внимание должно быть обращено прежде всего на направления социально-экономического развития. Кроме того, необходимо создать долгосрочную модель устойчивого экономического развития и выбрать стратегические области для получения устойчивой отдачи от инвестиций. Наконец, необходимо эффективно использовать потенциал Карабахского и Восточно-Зангезурского экономических районов.

## СПИСОК ЛИТЕРАТУРЫ

1. Hüseynov N.R., “İşğaldan azad olunmuş ərazilərdə turizm biznesinin inkişaf məsələləri və perspektivləri”. Sumqayıt Dövlət Universiteti Konfrans materialları, 2021, 72 səh.

2. Səfərov Q.Ə., “İşğaldan azad olunmuş ərazilər: əldən verilmiş imkanlar və perspektivlər”, Sumqayıt Dövlət Universiteti Konfrans materialları, 2021, 12 səh.

3. Aliyev A. “Building Smart Cities and Villages in Azerbaijan: Challenges and Opportunities”. 2021.

4. Alock E., Bodel J.,Talbert R.J.A. (2014) “Highways, Byways, and Road Systems in the Pre-modern World”. The Classical Review 64:1, s. 262-264

5. Nadeem M., Aziz A., Rashid M.A. (2021) “Scaling the Potential of Compact City Development: The Case of Lahore”, Pakistan, s.2.

6. Nakamura H., Nagasawa K., Hirashi K. (2019) "Principles of infrastructure Case Studies and Best Practices". s. 2-3.
7. Jochimsen R. (1966) "Theorie der Infrastruktur, Grundlagen der marktwirtschaftlichen Entwicklung". Tübingen (J.C.B. Mohr (Paul Siebeck)) s. 13
8. https://www.etymonline.com/word/infrastructure
9. https://president.az/ru/pages/view/azerbaijan/constitution
10. https://simplicable.com/new/hard-infrastructure-vs-soft-infrastructure, 2017
11. https://www.oecd.org/g20/topics/infrastructure/
12. https://www.stat.gov.az/source/system_nat_accounts/,2022
13. https://www.stat.gov.az/source/demoqraphy,2022
14. https://caspiannews.com/news-detail/azerbaijan-accelerates-development-of-smart-village-and-smart-city-projects-2021-4-20-0/, 2021
15. https://president.az/ru/articles/view/51179, 2021
16. https://azertag.az/ru/xeber/Ministerstvo_energetiki_podpisalo_soglashenie_s_yaponskoi_kompaniei_po_sozdaniyu_zony_zelenoi_energii-1775063, 2021
17. https://caspiannews.com/news-detail/unlocked-potential-of-azerbaijans-liberated-lands-to-support-tracecas-expansion-2021-10-26-0/, 2021
18. https://smb.gov.az/az/all-news/kobia-da-2021-ci-ilin-yekunlari-ile-bagli-metbuat-konfransi-kecirilib, 2022
19. https://www.reading.ac.uk/PeBBu/state_of_art/urban_approaches/compact_city/compact_city.htm
20. https://base.garant.ru/194365/, 2020
21. https://azertag.az/ru/xeber/Prezident_Ilham_Aliev_i_pervaya_ledi_Mehriban_Alieva_prinyali_uchastie_v_otkrytii_Dorogi_Pobedy-1920342, 2021
22. https://azertag.az/xeber/Araz_Vadisi_Iqtisadi_Zonasi_Senaye_Parkinda_muhendis_geoloji_tedqiqat_isleri_yekunlasib-2008625, 2022

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ İQTİSADİ DƏSTƏK TƏDBİRLƏRİ VƏ VERGİTUTMA MEXANİZMİNİN TƏTBİQİ MƏSƏLƏLƏRİ

**i.ü.f.d., dos. Hümbətova Suqra**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

**Güləliyev Tofiq**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## Xülasə

Məqalənin yazılmasında məqsəd işğaldan azad edilmiş ərazilərimizin ölkənin iqtisadi həyatına reinteqrasiyası prosesinin sürətləndirilməsi naminə yeni yaradılacaq iqtisadi infrastruktur və iqtisadi layihələri müəyyənləşdirmək, həmçinin bu layihələrin effektivliyinin daha da artırılması üçün tətbiq olunacaq stimullaşdırıcı tədbirlərin analizindən və gözlənilən nəticələrin müəyyən olunmasından ibarətdir.

Burada bərpa quruculuq işlərinin sürətləndirilməsi, bu istiqamətdə ölkə başçısı tərəfindən imzalanmış müvafiq fərman və sərəncamlarda müəyyən olunmuş Milli Prioritetlər, inkişaf istiqamətləri müəyyən olunmuş, nəzərdə tutulan stimullaşdırıcı tədbirlər, investisiyaların cəlb edilməsi üçün nəzərdə tutulan güzəştlər müvafiq qanunvericilik aktlarına uyğun araşdırılmışdır.

İlk növbədə həyata keçiriləcək iqtisadi layihələr kimi yaradılacaq yeni sənaye parklarının inkişaf perspektivləri müəyyənləşdirilmiş və bu sənaye parklarının rezidentlərinin gələcək fəaliyyəti üçün stimulaşdırıcı tədbirlərin effektivliyi diqqətə çatdırılmışdır.

Sonda isə bu tədbirlərin nəticəsində gözlənilən ilkin proqnozlar verilmişdir.

***Açar sözlər***. *İşğaldan azad olunmuş ərazilər, sənaye parkları, vergi güzəştləri,investisiya təşviqi sənədi*

## Giriş

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz uzun illərdir işğal altında olan əzəli torpaqlarımızı düşmən tapdağından azad etdikdən sonra postkonflikt dövrü və ən əsas da azad olunmuş ərazilərimizin iqtisadi inkişafı diqqət mərkəzinə gəlmişdir. Ölkə Prezidentinin rəhbərliyi və həyata keçirdiyi məqsədyönlü siyasi iqtisadi kursun nəticəsində 17 il ərzində ölkə iqtidasiyyatının 3 dəfədən artıq böyüməsi, region və ümumi dünya əhəmiyyətli neft-qaz və nəqliyyat layihələrinin reallaşdırılması ölkəmizin siyasi və iqtisadi gücünü bütün dünyaya göstərmişdi. Ərazisinin sahəsinə görə dünya ölkələri arasında 114-cü, əhalisinin sayına görə isə 90-cu yerdə qərarlaşan ölkəmiz kifayət qədər nüfuzlu hesab olunan “US News”un açıqladığı hesabata əsasən dünya 45-ci gücə çevrilməyi bacarmışdır. Bütün bu qeyd olunan siyasi-iqtisadi uğurların davamı olaraq hərbi uğurlar da gəlməli idi ki, ölkəmizin bütün sahələrdəki gücü dünya ölkələri qarşısında bir daha təsdiqlənmiş olunsun. Son on il ərzində ölkəmizin hərbi xərcləri Ümumi Daxili Məhsulun 4%-i və dövlət büdcəsinin 11%-i səviyyəsində olmuşdur. Məhz bu qeyd olunanların nəticəsi olaraq ordumuz 44 gün ərzində düşmən tərəfindən 30 il ərzində qurulmuş müdafiə səddini yarmağı bacardı və illər ilə işğal edilmiş torpaqlarımızı həftələr içində azad etməyi bacardı. Təbii ki, hərbi rəqabətə və müharibəyə duruş gətirə bilməyəcəyi öncədən proqnozlaşdırılan və məlum olan düşmən ölkə müharibənin artıq ilk 20 günü ərzində 3,5 milyard dollar və Ümumi Daxili Məhsullarının təqribən 30%-i həcmində itkiyə məruz qalmışdır. Aydındır ki, kənar yardımlar və ianələr olmadığı təqdirdə bu zərərləri bağlamaq üçün Ermənistana on ildən artıq müddət lazım olacaqdır.

Beləliklə, ölkəmizin iqtisadi və siyasi qüvvəti hərbi gücə çevrilməklə bir daha öz təsdiqini tapmış oldu. Ölkəmizin Cənubi Qafqaz regionunda bütün güc göstəriciləri üzrə-iqtisadi, siyasi və hərbi istiqamətlər üzrə ön plana çıxması bölgənin geopolitik və geoiqtisadi həyatında yeni reallıqlar ortaya qoydu. Bu iqtisadi gücün davamı olaraq da, müharibənin bitməsindən dərhal sonra azad olunmuş ərazilərin sürətli şəkildə bərpası prosesinə başlanılmış və ölkə Prezidentinin qeyd etdiyi kimi bütün bu görülən işlər xaricdən heç bir vəsait

cəlb edilmədən, tam olaraq daxili iqtisadi mənbələr hesabına həyata keçirilməkdədir.

Onu da qeyd edək ki, dövlətimin azad olunmuş ərazilərin bərpası işində müəyyən qədər təcrübəsi vardır və bununla bağlı ölkəmizdə Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentlik də fəaliyyət göstərir ki, onların da əsas vəzifəsi aparılan təmir-bərpa və quruculuq işlərinin əlaqələndirilməsi və məcburi köçkün vətəndaşlarımızın doğma torpaqlarımıza yenidən qayıtması üçün zəruri infrastrukturun yaradılmasından ibarətdir. 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş uğurlu Horadiz əməliyyatı ilə Füzuli rayonunun 42 yaşayış məntəqəsi və 2016-cı ilin aprel döyüşlərindən sonra isə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilmişdir ki, bu kəndin də azad olunması və sürətli formada bərpası - “Böyük qayıdışın” başlanğıcı hesab oluna bilər.

Növbəti illərdə “Böyük qayıdışın” davamı olaraq, işğaldan azad olunmuş ərazilərimizə qaçqın və məcburi köçkünlərin qayıdışı gözlənilir ki, bu da həmin ərazilərdə yaşayış üçün lazım olan infrastrukturun, iş yerlərinin yaradılmasını zəruri edir. Təbii ki bu proseslərin bu ildən başlayaraq, yaxın illərdə ölkənin siyasi, iqtisadi və sosial həyatında ən vacib prioritet istiqamət olmasını nəzərə alaraq, seçilmiş dissertasiya mövzusu ölkəmizin müasir həyatında ən aktual mövzu hesab olunur. Belə ki, yuxarıda qeyd edildiyi kimi azad olunmuş ərazilərdə yaşayış üçün infrastrukturun erməni vandalları tərəfindən tam şəkildə məhv edildiyini nəzərə alsaq, həmin ərazilərin bərpasında, infrastrukturun və xüsusilə iqtisadi aktivliyin təmin edilməsində dövlət sektoru ilə yanaşı, qeyri-dövlət sektorunun, daxili və xarici investorların, sahibkarların da cəlb edilməsinə ehtiyac vardır ki, bu da iqtisadi dəstək tədbirləri, o cümlədən vergi güzəştəri vasitəsilə təmin edilməlidir.

Tədqiqat işinin əsas məqsədi işğaldan azad olunmuş torpaqlarımızın iqtisadi dəstək tədbirləri, xüsusilə vergi güzəştləri vasitəsilə “Böyük qayıdış” üçün yüksək səviyyədə bərpası,dayanıqlı iqtisadi aktivliyinin təmin edilməsi prosesinin araşdırılması və təkliflərin hazırlanmasından ibarətdir. Yuxarıda qeyd edildiyi kimi, tədqiqat işinin məqsədi ümumilikdə ölkə iqtisadiyyatı qarşısında duran ən əsas məqsədlərdən biridir.Dissertasiya işi üzrə məqsədin müəyyən edilməsi və qarşıda duran əsas vəzifələrə çatmaq üçün işğaldan azad olunan ərazilərin iqtisadi imkanlarının təhlili aparılmış və nəticələr əldə edilərək, müxtəlif dəstək tədbirləri və güzəştlər barədə təkliflər hazırlanmışdır.

Tədqiqat işinin məqsədinə uyğun olaraq aşağıdakı qeyd olunan vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- ✓ İşğaldan azad olunmuş ərazilərin iqtisadi imkanlarının araşdırılması;
- ✓ Effektiv və iqtisadi subyektlər üçün cəlbedici ola biləcək iqtisadi dəstək tədbirlərinin və vergitutmanın tətbiqi mexanizminin, xüsusilə tətbiq olunacaq güzəştlərin araşdırılması və müəyyən edilməsi;
- ✓ Müəyyən edilmiş dəstək tədbirlərinin və vergitutmanın tətbiqi mexanizmlərinin tətbiqi və reallaşdırılması ilə bağlı praktik təkliflərin hazırlanması;

Dissertasiya işində Azərbaycan Respublikasının işğaldan azad olunmuş torpaqlarının bərpasında, dirçəlməsində və iqtisadi inkişafının təmin edilməsi prosesində tətbiq oluna biləcək iqtisadi dəstək tədbirlərinin, həmçinin vergitutma ilə bağlı güzəştlərin tətbiq olunması ilə bağlı araşdırmaların aparılması və təkliflərin qeyd olunan işlərin icrası və region üzrə iqtisadi siyasətin müəyyən olunmasında istifadə oluna biləcəyini nəzərə alaraq tədqiqatın praktiki əhəmiyyətini qeyd edə bilərik.

Tədqiqat işinin materialları Azərbaycan Respublikasının azad olunmuş regionlar üzrə iqtisadi və vergi siyasətinin hazırlanmasında, Vergi Məcəlləsinin və digər hüquqi-normativ aktların təkmilləşdirilməsində geniş istifadə oluna bilər.

## İşğaldan azad olunmuş ərazilərdə yaradılan yeni iqtisadi infrastruktur və reallaşdırılan iqtisadi layihələr

Otuz ildən artıq işğal altında qalan torpaqlarımızı düşmən tapdağından azad etdikdən sonra çox qısa bir müddətdə ərazilərin bərpası işinə başlanılmış və ölkə başçısı cənab İlham Əliyevin də qeyd etdiyi kimi “Böyük qayıdış” proqramının əsası qoyulmuşdur. Təbii ki, işğal altında qalan 30 il ərzində əzəli torpaqlarımız mənfur düşmən tərəfindən tamamilə dağıdılmış, viran edilmiş, bütün infrastruktur obyektləri və yaşayış məntəqələri yerlə yeksan edilmişdir. Dağıdılmış bu ərazilərdə ilkin olaraq ölkə başçısının tapşırıq və göstərişlərinə əsasən zəruri infrastruktur layihələrin icrasına və kommunikasiyaların bərpası işinə başlanılmışdır. Ötən ildən başlamış genişmiqyaslı və ardıcıl formada

aparılan bərpa-quruculuq tədbirləri hal-hazırda da sürətli şəkildə davam etməkdədir.

İşğaldan azad olunan ərazilərdə həyata keçirilən bərpa quruculuq işləri kifayət qədər əsaslı və düşünülmüş bir baza üzərində həyata keçirilir və təbii ki çox geniş sahəlidir. Burada aydındır ki, ilk növbədə görülən işlər minaların təmizlənməsi işindən başlanılmış, paralel olaraq isə yol-nəqliyyat, enerji və digər sosial-iqtisadi infraktur layihələrinin icrası davam etdirilir. Xüsusilə o da qeyd olunmalıdır ki, ərazilərin bərpası işində ən yeni texnologiyalar ön plana çəkilmiş və bütün layihələrin icrasında istifadə olunmaqdadır.

Ötən 1 ildən artıq müddətdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən regiona bir çox səfərlər edilmiş, həyata keçirilən işlərin icrasına şəxsən birbaşa nəzarət həyata keçirilmiş və ciddi nəzarət və rəhbərlik sayəsində layihələr uğurla icra olunmaqdadır.

Bu sahəyə ayrılan xüsusi nəzarətin nəticəsidir ki, işğaldan azad olunmuş torpaqlar ilə bağlı sosial-iqtisadi, mədəni, idarəetmə və digər vacib problemlərin aradan qaldırılması, həmçinin bu sahələr üzrə qarşılıqlı əlaqənin təmin olunması naminə AR Prezidentinin 24 noyabr 2020-ci il tarixli sərəncamı ilə bu sahələrə məsul dövlət qurumlarının vəzifəli şəxslərindan ibarət olan Əlaqələndirmə Qərargahı yaradılmış və Prezident Admininstrasiyasının rəhbəri qərargahın rəhbəri təyin olunmuşdur (https://president.az/az/articles/view/47738).

İşğaldan azad olunmuş ərazilərimizin bərpası və 30 ildən artıq müddətdə doğma el obalarından didərgin salınmış vətəndaşlarımızın doğma torpaqlarına qaytarılması dövlətin gələcək 10 ildə qarşısında duran mühüm vəzifələrindən biri olması AR Prezidentinin 02.02.2021-ci il tarixli sərəncamı ilə təsdiqlənmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də öz əksini tapmışdır. Qeyd olunan milli prioritetlər qarşıdakı 10 il ərzində ölkəmiz üçün qarşıda duran ən mühüm məsələləri özündə əks etdirməklə ümumilikdə 5 əsas Milli Prioriteti özündə birləşdirir.

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;

2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;

3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;

4. işğaldan azad olunmuş ərazilərə «Böyük Qayıdış” ;

5. təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi (https://president.az/az/articles/view/50474).

Bu «Böyük Qayıdış” məcburi köçkünlərimizin və digər vətəndaşlarımızın həmin ərazilərdə daimi məskunlaşmasına xidmət etməklə həmin ərazilərimizin də ölkənin iqtisadi həyatına qoşulmasına öz töhvəsini verəcəkdir.

İşğaldan azad olunmuş ərazilərin bərpası ilə regionun nəqliyyat-logistika kanallarının yenidən bərpası milli iqtisadiyyatımızın dünya iqtisadiyyatına inteqrasiya imkanlarını genişləndirməklə bərabər, işğaldan azad olunmuş ərazilərin də dayanıqlı inkişafına səbəb olacaqdır.

«Böyük Qayıdış” proqramının icrası üçün ərazidə bütün infrastrukturlar keyfiyyətli şəkildə yaradılmalı, əhalinin layiqli və təhlükəsiz yaşayış şərati yaradılmalı, bu ərazilər regionun ən gözəl dilbər guşələrindən birinə çevrilməldir. Bu şəratin qurulması üçün dövlət və özəl sektorun qarşılıqlı əməkdaşlıq çərçivəsində birgə fəaliyyət göstərməsinə ehtiyac vardır.

Qeyd olunan sərəncamda sözü gedən prioritetin qarşısında duran hədəflərə çatmaq üçün 2 əsas məqsədə nail olunması göstərilmişdir:

- dayanıqlı məskunlaşma;
- iqtisadi fəaliyyətə reinteqrasiya

Dayanıqlı məskunlaşma dedikdə regiona köçəcək insanlar üçün müasir texnoloji standartlara uyğun, bütün sosial mədəni infrastrukturlara malik yaşayış məntəqələrinin yaradılması və insanlar üçün layiqli yaşayış səviyyəsinin təmin olunması nəzərdə tutulur. Burada həmçinin nəzərdə tutulur ki, bütün qeyd olunan müasir şərait yaradıldıqdan sonra regionda məskunlaşmanın səviyyəsi işğaldan əvvəlki dövrdəki səviyyəyə çatdırılmalıdır.

Bu prioritet çərçivəsində qeyd olunan 2-ci məqsəd isə regionun ölkə iqtisadiyyatına qoşulmasını və inteqrasiyasını qarşıya hədəf kimi qoyur. Burada qeyd olunur ki bu məqsədə nail olunması üçün dövlət-özəl tərəfdaşlığı ən yüksək səviyyədə təmin olunmalı, özəl sektora müvafiq dəstək tədbirləri göstərilməli və regionun inkişafına müsbət töhvə verməsi üçün bütün imkanlar yaradılmalıdır. Burada da qarşıya qoyulan əsas məqsəd qısa müddətdə

regionun iqtisadi aktivliyini və ölkənin ümumi iqtisadiyyatındakı payını işğaldan əvvəlki vəziyyətə çatdırmaqdan ibarətdir.

Qeyd olunan məqsədə nail olmaq üçün ötən ilin sonunda, 10 dekabr tarixində cənab Prezident tərəfindən “İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” sərəncam imzalanmışdır.

Sərəncamın preambula hissəsində işğaldan azad olunan torpaqlarımızın bərpası, ölkənin iqtisadi həyatına qoşulması, regionda ən yeni tələblərə uyğun infrastrukturun yaradılması, mədəni abidələrimizin yenidən qurulması və dayanıqlı məskunlaşmanın təmin olunması istiqamətində geniş əhatələli işlərin görüldüyü vurğulanmış və bu ərazilərin zəngin resurs və imkanlarından məqsədyönlü istifadə, regionda əlverişli sahibkarlıq şəraitinin yaradılması üçün dövlət və qeyri-dövlət sektorunun əməkdaşlığının vacibliyi qeyd olunmuşdur.

Əlavə olaraq sərəncama əsasən, işğaldan azad olunmuş ərazilərin iqtisadi inkişafının təmin olunması, investisiyaların cəlb edilməsi imkanlarının artırılması, ən müasir standartlara cavab verən sənaye, ticarət və xidmət sahələri üzrə zəruri infrastruktur layihələrin icrasının sürətləndirilməsi, elmi texniki tərəqqinin bugünki mövcud imkanlarına uyğun texnoloji yeniliklərin tətbiqi, sahibkarlıq subyektləri üçün cəbedici güzəştlərin və stimulverici mexanizmlərin hazırlanması və əlverişli biznes şəraitinin yaradılması məqsədilə AR NK-ya aşağıda qeyd olunan istiqamətlər üzrə 3 ay müddətində təklifləri hazırlayaraq AR Prezidentinə təqdim etməsi barədə aşağıdakı tapşırıqlar verilmişdir;

a) azad olunmuş regionda iqtisadi və insan resurslarından optimal şəkildə istifadə olunması, onların istehsala və emala istiqamətlənməsi məqsədilə vergitutma ilə bağlı güzəştlərin, həmçinin sosial sığorta ayırmaları ilə bağlı güzəştlərin verilməsi ilə bağlı;

b) işğaldan azad olunan torpaqlarda fəaliyyət göstərən sahibkarların investisiya təşviqi sənədi alması sisteminin sadələşdirilməsi, qeyd olunan ərazilərdə istehsal sahəsində işləyən vergi ödəyiciləri üçün istehsal fəaliyyəti ilə bağlı olan xammalın idxalı ilə bağlı gömrük rüsumları və vergi güzəştlərinin verilməsi ilə bağlı;

c) həmin ərazidə istehsal sahəsində fəaliyyət göstərək sahibkarlıq subyektlərinə kommunal xidmət haqları ilə əlaqədar güzəştlərin verilməsi ilə bağlı;

d) ən yeni dövrün tələblərinə cavab verən kadrların bu ərazilərdə işləməyə cəlb olunması, həmçinin əmək kvotasının müəyyənləşdirilməsi ilə bağlı;

e) qeyd olunan ərazilərdə işləyəcək sahibkarların maliyyə vəsaitləri əldə etmək imkanlarının artırılması və bu istiqamətdə dövlət tərəfindən zəruri dəstək tədbirlərinin görülməsi;

f) əsasən bu ərazilərdə ekoloji təmiz avadanlıqlardan və renewable enerji mənbələrindən istifadə edən sahibkarlara üstünlük verilməsi, bu ərazilərdə «Böyük Qayıdış" planının icrası ilə bağlı inşa olunacaq yaşayış fonlarının inşası işində dövlət-özəl əməkdaşlığının dəstəklənməsi ilə bağlı olmuşdur (https://president.az/az/articles/view/54575).

Cənab Prezidentin qeyd olunan müvafiq fərman və sərəncamları ilə qarşıya qoyulmuş məqsədlərə nail olunması üçün həmin ərazilərdə sürətli şəkildə iqtisadi dəstək tədbirləri, mühüm iqtisadi layihələrin icrasına başlanılmalıdır ki, ən qısa müddətdə regionun ölkənin iqtisadi həyatına qoşulması təmin olunsun və «Böyük Qayıdış" planın icrası əlçatan olsun. Bu dəstək tədbiri kimi ölkə başçısının müvafiq fərmanları ilə Sənaye Parklarının yaradılmasına başlanılmışdır.

Müasir istehsal və emal sənayesinin inkişafı üçün zəruri infrastruktura malik olan sənaye parkları ölkədə sənaye sahəsində fəaliyyət göstərən sahibkarlara dövlət tərəfindən iqtisadi dəstəyin göstərilməsi, müasir dövrün tələblərinə uyğun olaraq texnoloji yeniliklərdən istifadə edilməklə beynəlxalq rəqabətə davamlı məhsulların istehsalının təmin olunması və ölkədə sahibkarlığın inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsi məqsədilə yaradılmaqdadır. Bu parklarının təşkil olunması ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı, sənaye məhsulları üzrə idxaldan asılılığın azaldılması, əksinə ixrac imkanlarının artırılması və ölkəyə valyuta daxil olması, sənaye parklarının yerləşdiyi ətraf ərazilər üzrə məşğulluğun təmin olunması kimi əsas vəzifələri özündə ehtiva etməklə ölkənin iqtisadi həyatı üçün olduqca mühüm hadisədir. Bu parklarının yaradılması ilə bağlı ölkədə işlər davam etdirilir, bu sahədə beynəlxalq təcrübə öyrənilməklə hüquqi normatik aktların hazırlanması təmin olunmuşdur.

Ölkədə sənaye parklarının təşkil olunması dövlət başçısı tərəfindən təsdiq olunmuş bir çox hüquqi normativ sənədlərdə, həmçinin cənab Prezidentin 26 dekabr 2014-cü il tarixində təsdiq etdiyi “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”nda öz əksini tapmışdır (https://president.az/az/articles/view/13900).

Həmçinin ölkə başçısının 24 aprel 2013-cü il tarixli Fərmanı ilə “Sənaye parkları haqqında Nümunəvi Əsasnamə” təsdiq edilmişdir ki, qeyd olunan fərmanla sənaye parkının bir iqtisadi anlayış kimi tərifi verilmişdir. (https://president.az/az/articles/view/7910).

Ölkə ərazisində mövcud olan və hal-hazırda işğaldan azad olunmuş ərazilərimizdə yaradılmasına başlanılmış sənaye parklarının yaradılmasında əsas məqsədlər aşağıdakılardır:

- Yüksək elmi texniki tərəqqinin tətbiqi ilə rəqabətə davamlı sənaye istehsalının yaradılması, bu sahədə fəaliyyətin təmin olunması üçün əlverişli sahibkarlıq mühitinin yaradılması;

- Ümumilikdə ölkə iqtisadiyyatının bütün sahələrinin, xüsusilə də iqtisadiyyatın qeyri-neft sektorunun inkişafının dəstəklənməsi;

- Sahibkarlığın və sənaye istehsalının inkişafı məqsədilə yerli və xarici investorlar üçün cəlbedici iqtisadi şəraitin yaradılması;

- Sənaye parklarının yaradıldığı ərazidə və ətraf ərazilərdə məşğulluğun təmin olunması sahəsində yeni imkanların və yeni iş yerlərinin yaradılması;

Hal-hazırda qüvvədə olan qanunvericiliyə əsasən sənaye parklarında bir çox güzəştlər tətbiq olunmaqdadır ki, işğaldan azad olunmuş ərazilərdə yeni yaradılan sənaye parklarında fəaliyyət göstərəcək vergi ödəyiciləri də bu güzəştlərdən yararlana biləcəklər:

- Vergi və gömrük ilə bağlı güzəştlər;

- Parkların istehsal üçün tələb olunan zəruri infrastrukturla təchiz edilməsi;

- İcarəyə götürülmüş torpaqlar üçün minimal məbləğdə icarə haqlarının müəyyən edilməsi;

- Sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan prosedurların sadələşdirilməsi və minimuma endirilməsi;

- İstehsalın təmin olunması üçün tələb olunan xidmətlərin təşkili; (https://www.economy.gov.az/article/s%C9%99naye-park%C4%B1/21403).

Sənaye parkları ilə bağlı bütün bu qeyd olunan əlverişli infrastruktur, stimullaşdırıcı və cəlbedici vergi və güzəştlərinin mövcudluğu və ölkə ərazisindəki mövcud 5 sənaye parkının yaradılmasından əldə olunan müsbət nəticələr işğaldan azad olunmuş ərazilərimizdə də iqtisadi həyatın sürətli şəkildə canlanmasının təmin olunması üçün yeni sənaye parklarının yaradılması zərurəti yaratmışdır. Bu məqsədlə ölkə başçısı tərəfindən 28 may 2021-ci il tarixdə “Ağdam Sənaye Parkının yaradılması haqqında” və 4 oktyabr 2021-ci il tarixdə isə “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yaradılması haqqında müvafiq Fərmanlar imzalanmışdır. Bu sənaye parklarının yaradılması ilə bağlı fərmanların hər ikisində də ölkə başçısı tərəfindən sənaye parklarının yaradılmasının məqsədi və görülməli işlər barədə konkret tapşırıqlar verilmişdir. Belə ki, qeyd olunan layihələrin əsas məqsədi kimi sahibkarların məqsədyönlü fəaliyyəti və inkişafı, həmçinin rəqabətqabiliyyətli məhsulların istehsalı, istehsal və emal prosesində ən müasir texnologiyaların tətbiqi qeyd olunan ərazilərdə təmin olunmalı, həmçinin regiona qayıdacaq əhali üçün daimi iş yerləri yaradılmalıdır. Bu işlərin görülməsi üçün ilkin zəruri insfrastrukturun (işıq,su,qaz, kanalizasiya, rabitə, yanğından mühafizə və s) yaradılması məqsədilə AR İqtisadiyyat Nazirliyinə sənaye parklarının hər biri üzrə ilkin olaraq 500,0 min manat vəsait ayrılmışdır.

Ağdamda yaradılmasına başlanılan sənaye parkı ölkədə sayca altıncı, “Araz Vadisi İqtisadi Zonası" sənaye parkı isə yeddinci olacaq. Ağdam sənaye parkı üçün nəzərdə tutulmuş ərazi işğaldan əvvəlki dövrdə də sənaye istehsalı müəssisələrinə məxsus ərazilər olmuşdur. Parkın Ağdam şəhərinin ətrafında 190 ha ərazidə yaradılması nəzərdə tutulmuşdur və şəhərə çəkiləcək magistral və dəmir yollarının kəsişməsində yerləşəcəkdir. Həmçinin parkın fəaliyyətə başlamasının mərhələli şəkildə həyata keçirilməsi nəzərdə tutulur. Təbii ki, ilk növbədə əsas məqsəd Ağdam şəhərinin və ətraf ərazilərin abad vəziyyətə gətirilməsi olduğundan, sənaye parkında da ilkin olaraq inşaat materiallarının istehsalı ilə məşğul olan müəssisələrin fəaliyyətə başlaması nəzərdə tutulur. Həmçinin ərazidə 5 ha sahəyə malik tikinti materialları satış məntəqəsinin də yaradılması nəzərdə tutulur ki, bu ərazidə də ilk növbədə parkın rezidentləri üçün əlverişli satış imkanları yaradılacaqdır.

İkinci mərhələdə isə qida və emal sənayesi ilə məşğul olan şirkətlərin parkın rezidenti kimi fəaliyyətə başlaması nəzərdə tutulmuşdur. Aydındır ki, regiondan məskunlaşma təmin olunduqdan sonra burada kənd təsərrüfatı məhsullarının istehsalı böyük imkanlar yaranacaqdır. İşğaldan əvvəlki dövrdə də, rayon əhalisi əsasən meyvəçilik, tərəvəzçilik, pambıqçılıq və digər kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olmuşdur. Həmçinin park ərazisində istehsal obyektləri ilə yanaşı, istehsal olunmuş hazır məhsulların saxlanması və qablaşdırılması üçün ərazilər də təşkil olunacaq. İstehsal obyektlərinin parkda yerləşdirilməsi də istehsalın növünə uyğun olaraq, bütün norma və qaydalara uyğun olaraq təşkil olunacaqdır.

Hal-hazırda Ağdam sənaye parkında sintetik xalça, xüsusi və fərdi geyimlər, polimer məhsulları, günəş enerjisi ilə qidalanan işıq dirəkləri və xüsusi dam örtükləri, prefabrik dəmir-beton məmulatlarının istehsalı üzrə beş layihə baxışdadır və müzakirə mərhələsindədir. Təqdim olunmuş bu layihələrin icrası baş tutacağı halda parkda bu müəssisələr üzrə 1100-dən bir qədər artıq yeni iş yerinin açılması mümkün olacaqdır. Həmçinin hal-hazırda parkda bir çox sosial infrastruktur layihələri artıq icra olunmuşdur. Belə ki, rezidentlər üçün ofislər, yataqxana, mağaza, tibb məntəqəsi, aptek və yeməkxana təşkil olunmuş, əraziyə yeni yol çəkilib, ətrafda abadlıq işləri aparılıb.

Regionda iqtisadi aktivliyin təmin olunmasında müstəsna rol oynacaq digər iqtisadi tədbir isə “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkının yaradılması olacaqdır. Bu sənaye parkının da yaradılmasında əsas məqsəd regionun sənaye imkanlarının üzə çıxarılması, milli iqtisadiyyata qoşulması, regiona qayıdacaq vətəndaşlarımız üçün yeni iş yerlərinin yaradılmasıdır.

Parkın ərazisində ticarət və daşıma xidmətləri, saxlama yerləri, topdan və pərakəndə satış məntəqələrini, yük maşınları üçün dayanacaq, YDM, nəqliyyat vasitələrinə texniki xidmətlərin görülməsi üçün təmir obyektlərinin yaradılması nəzərdə tutulmuşdur.

Həmçinin parkda inşaat işləri üçün materialların, metal məmulatların istehsalı müəssisələrinin tikintisi planlaşdırılır. Əlavə olaraq parkın daxilində əhalinin əsas məşğul olacağı kənd təsərrüfatı məhsullarının qablaşdırılması müəssisəsinin, meyvə-tərəvəz konserv zavodunun, ət və süd istehsalı, heyvandarlıq üçün istifadə olunacaq yemlərin istehsalı, əkinçilikdə yararlı olacaq gübrələrin istehsalı müəssisəsi, şərab istehsalı obyekti, soyuducu anbarların tikintisi nəzərdə tutulur.

Onu da qeyd edək ki, parkın tikintisi nəzərdə tutulan Cəbrayıl rayonu ərazisi işğal altında olduğu dövr zamanı başqa işğal altında olan torpaqlarımız kimi ermənilər tərəfindən minalanmışdır. Minaların təmizlənməsi zamanı parkın ərazisində də böyük sayda minalar və partlamamış silah sursat müəyyən edilmişdir və parkın ərazisi hal-hazırki tarixə tam təmizlənmişdir. Parkən bütün sahəsində topoqrafik planlama və mühəndis- geoloji tədqiqat işləri tam yekunlaşdırılmışdır və parkın planı tam olaraq hazırlanmışdır.  Sənaye parkının ərazisi 200 hektar təşkil edəcəkdir. Parkda ilk növbədə mobil formada şəhərciyin yaradılmasına başlanılmışdır və bu işlər uğurla davam etməkdədir. Qeyd olunanlar ilə yanaşı Park ərazisində inşaat işləri aparılan ərazilərin və mobil şəhərciyin su təminatı məsələsinin həlli üçün də 120 metr dərinliyə malik artezian quyusu qazılmış və artıq istismar olunmaqdadır.

Su təminatı problemi həllini tapdıqdan sonra qarşıda duran əsas məsələlərdən biri parkın davamlı elektrik enerjisi ilə təminatı məsələsidir ki, bu istiqamətdə də planlar hazırlanmışdır və parkın sahəsində 630 kilovoltluq transformator məntəqəsinin, 10 kilovoltluq elektrik xətlərinin, daha sonra 25 MVt gücündə elektrik yarımstansiyasının və məişət tullantı sularının təmizləyici qurğusunun quraşdırılması nəzərdə tutulur.

Mobil şəhərcikdə insanların yaşaması üçün və müəssisələrin fəaliyyəti üçün zəruri infrastruktur yüksək səviyyədə təşkil olunacaq, yataqxana, yeməkxana, mağazalar, bankomat və ödəniş məntəqələri yaradılacaq və parkın ərazisində yollara asfalt döşənilməsi həyata keçiriləcək.

Bu sənaye parkını sahibkarlar və investorlar üçün cəlbedici edən əsas məqam onun çox əhəmiyyətli iqtisadi-coğrafi və logistik yerləşməsi ilə bağlıdır. Belə ki, parkın regionda tikilən əsas magistral avtomobil və dəmir yollarının qovşağında yerləşməsi parkın rezidentləri üçün əlavə iqtisadi imkanlar açmaqla, əsas nəqliyyat şəbəkəsinə qısa müddətdə və daha az xərclə çıxmasına səbəb olacaq. Bu əsas nəqliyyat şəbəkələri Zəngəzur dəhlizi ilə Azərbaycan və Türkiyə arasında, həmçinin Türkiyədən Rusiyaya və əksinə Rusiyaya məxsus məhsulların Türkiyə vasitəsilə Avropa bazarına daşınmasına xidmət edəcək.

Bu qeyd olunan səbəblərə görə parkın rezidenti olmaq üçün sahibkarlar tərəfindən ciddi maraq göstərilməkdədir və logistika mərkəzinin yaradılması, TIR parkı, inşaat mallarının, yuyucu vasitələrin istehsalı və digər sahələr üzrə 10-dən çox layihə təqdim olunmuşdur. Təqdim olunmuş layihələrin məntiqi

davamı olaraq yaradılacaq yeni parkın ilk xarici rezidenti də artıq məlumdur və Rusiyanın "KamAZ" ASC şirkəti tərəfindən layihənin icrasına başlanılmışdır. Ümumilikdə 50-dən artıq xarici kompaniyalar işğaldan azad olunmuş ərazilərin bərpası işində iştirak etmək üçün dövlətə müraciət ünvanlayıb. Bunların arasında Türkiyə, Rusiya, Pakistan, Macarıstan, Qazaxıstan, Çin, İtaliya, İsrail və Cənubi Koreya şirkətləri əsas yer tutur.

Onu da bildirək ki, bütün bu parkların rezidenti olmaq üçün təqdim olunan layihələr cənab Prezidentin 22 yanvar 2021-ci il tarixli fərmanına əsasən yaradılmış İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən qəbul edilir.

Agentlik ölkədə fəaliyyət göstərən altı sənaye parkının - Sumqayıt Kimya, Pirallahı, Mingəçevir, Qaradağ, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları, 4 sənaye məhəlləsinin - Sabirabad, Masallı, Neftçala, Hacıqabul sənaye məhəllələri və 51 aqroparkın idarəedici təşkilatıdır. Bundan başqa, Agentliyin tərkibində Peşə Təhsili Mərkəzi də fəaliyyət göstərir.

Sənaye parklarından əlavə işğaldan azad olunmuş ərazilərə investisiya qoymaqla fəaliyyətə başlayacaq sahibkarlara investisiya təşviqi sənədi də verilə bilər ki, bununla da yeni fəaliyyətə başlayacaq sahibkarlara böyük stimullaşdırıcı güzəştlər verilə bilər. Sahibkarlara investisiya təşviqi sənədinə verilməsi AR Prezidentinin 18 yanvar tarixində imzaladığı 745 nömrəli Fərmanla təsdiq olunmuş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"na əsasən həyata keçirilir. (http://www.e-qanun.az/framework/31870). Bu qaydaların 3-cü hissəsində qeyd olunan kriteriyalara tam uyğun gələn investisiya layihələri ilə İqtisadiyyat Nazirliyini müraciət edən hüquqi və fiziki şəxslərə, sahibkarlara nazirlik tərəfindən bu sənəd təqdim olunur. Bu sənədi alan sahibkarlar bu sənədi aldıqları tarixdən etibarən fəaliyyətləri ilə bağlı AR VM-də və "Gömrük tarifi haqqında" Qanunda qeyd olunan müvafiq güzəşt və azadolmalardan istifadə hüququ qazanmış olurlar ki, bu güzəştlər barədə də fəslin növbəti hissəsində ətraflı məlumat veriləcəkdir. İnvestisiya təşviqi sənədi sahibkarların investisiyanı yönəldəcəyi fəaliyyət sahəsi, investisiyanın maliyyə tutumu ilə bağlı minimal tələb, bu layihənin həyata keçiriləcəyi ərazi ilə bağlı müəyyən olunmuş meyarlara uyğun olaraq verilir. Bu sənədin alınması üçün müraciət edən sahibkar tələb olunan kriteriyalara uyğun biznes layihəsini və bu layihənin icrası üçün lazım olan məbləğin ən azı 10 faizinin sözügedən layihə üzrə artıq investisiya kimi qoyulduğunu göstərən təsdiqeci sənədi və vergi ödəyicisi kimi uçotda olduğunu göstərən şəhadətnamənin

surətini qaydalara uyğun olaraq baxılması üçün Nazirliyə təqdim etməlidir. Nazirlik tərəfindən bu müraciətə qaydalara əsasən 5 iş günü müddətində baxılmalı və sənədlərdə hər hansı çatışmazlıq müəyyən olunmazsa və müəyyən olunmuş meyarlara uyğundursa investisiya təşviqi sənədi təqdim edilir.

Bu mövcud təcrübədən hesab edirik ki, iqtisadiyyatı yenidən qurulacaq azad olunmuş ərazilərimizdə də geniş istifadə oluna bilər. Sahibkarları yuxarıda qeyd olunan iqtisadi dəstək tədbirləri, stimullaşdırıcı güzəştlər vasitəsi ilə yeni imkanlar yaratmaqla qısa zamanda regionun iqtisadiyyatını dirçəldə bilərik.

Beləliklə, deyə bilərik ki ölkə başçısı tərəfindən imzalanmış yuxarıda qeyd olunan fərman və sərəncamlar, həyata keçirilən iqtisadi layihələr,inşası nəzərdə tutulan sənaye parkları və sahibkarlara veriləcək güzəşt və imkanlar bütövlükdə işğaldan zad olunmuş ərazilərimizin tezliklə ölkə iqtisadiyyatına reinteqrasiyasına, «Böyük Qayıdış”  planının icrasına yönəlmiş məqsədyönlü və ardıcıl addımlardır.

**İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın stimullaşdırılması məqsədilə vergi güzəştlərinin tətbiqi mexanizmi**

Ölkəmizdə 2014-cü ildən ardıcıl olaraq qəbul olunan regional inkişaf proqramlarının icrasının nəticəsi olaraq regionlarımız, rayon və kəndlərimizin sosial-iqtisadi vəziyyətində əhəmiyyətli dərəcədə inkişafa nail olunmuş, əhalinin maddi və sosial durumu yaxşılaşmış, regionlarda çalışan sahibkarlar üçün əlverişli investisiya mühiti yaradılmış, istər vətəndaşlar istərsə də, sahibkarlıq subyektləri üçün iqtisadi, sosial və mədəni infrastrukturun yaradılması təmin olunmuşdur. Məhz ölkədə son illərdə həyata keçirilən bu uğurlu siyasətin məntiqi nəticəsidir ki, digər sahələrdə olduğu kimi ölkəmizin hərbi qüdrəti də artmış və bunun sayəsində 44 gün davam edən ikinci Qarabağ müharibəsində ordumuz düşmənin layiqli cavabını verərək əzəli torpaqlarımızı düşmən tapdağından azad etmişdir. Ərazilərimiz işğaldan azad olunduqdan sonra qısa müddətdə ərazilərimizin bərpası işinə başlanılmış və bu sahədə görülən işlər hal-hazırda da uğurla davam etməkdədir. Adı çəkilən ərazilərin iqtisadi imkanlarından, təbii resurslarından və əlverişli turizm potensialından düzgün formada istifadə olunmaqla inkişaf proqramlarının hazırlanması və bu işlərin səmərəli idarəetmə mexanizminin təşkil

olunmasının zərurililiyi azad olunmuş ərazilərimizin iqtisadi rayonlar üzrə bölgüsü məsələsinə yenidən nəzər salınmasını meydana çıxarmışdır.

Qeyd olunanlar ilə əlaqədar olaraq ölkə başçısı tərəfindən 07 iyul 2021-ci il tarixdə "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalanmış və Fərmana əsasən ölkənin yeni iqtisadi rayonunlarının bölgüsü müəyyən edilmiş və iqtisadi rayonların sayı 10-dan 14-ə artırılmışdır. İşğaldan azad olunan əraziləri də özündə ehtiva edən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yeni yaradılmışdır. Qarabağ iqtisadi rayonu Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını özündə birləşdirir. Yeni təşkil olunmuş Şərqi Zəngəzur iqtisadi rayonuna isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları daxil edilmişdir (https://president.az/az/articles/view/52389).

İşğaldan azad olunmuş torpaqlarımız üzümçülük, pambıqçılıq, tütünçülük, baramaçılıq, bostançılıq, meyvə-tərəvəz və heyvandarlığın, xüsusilə maldarlığın və arıçılığın inkişafı üçün böyük perspektivlərə malikdir. Bu region üçün üzüm, pambıq, taxıl, qarğıdalı və noxud xarakterik bitkilər hesab olunur. İşğaldan əvvəlki dövrlərdə xüsusilə Füzuli və Ağdam rayonlarında taxıl, üzüm və pambıq istehsalına görə ölkə rayonları arasında həmişə ön sıralarda olurdular. Zəngilan, Qubadlı, Cəbrayıl rayonları da üzümçülük üzrə öncül rayonlardan hesab olunurdular. Kəlbəcər, Qubadlı və Zəngilan heyvandarlıq üzrə, Kəlbəcər rayonu üzrə həm də arıçılıqla xüsusilə ixtisaslaşmışdır. Qeyd olunan faktlardan görünür ki, işğaldan azad olunan ərazilərimiz kifayət qədər zəngin torpaq ehtiyatlarına və aqrar sahədə böyük potensiala malikdir və buna görə də yenidən qısa müddətdə həmin ərazilərin ölkə iqtisadiyyatına müsbət töhfəsi olacaqdır. Onu da qeyd edək ki, hələ işğaldan əvvəlki dövrdə Qarabağ bölgəsində xarici mütəxəssislərin və alimlərin iştirakı ilə bir çox elmi tədqiqatlar və araşdırmalar aparılmış və araşdırmaların nəticəsi olaraq müəyyən olunmuşdur ki, bu ərazilərdəki torpaqlar biomüxtəlifliyin genetik ehtiyatlarının zənginliyinə görə Cənubi Qafqaz regionunda xüsusi fərqlənir. Bu bölgə bir çox nadir bitkilərin, efir yağlarının, aromatik və dərman bitkilərinin də vətəni hesab olunur.

Kənd təsərrüfatı ilə bağlı sahələrdən başqa, bu region faydalı qazıntı ehtiyatları ilə də zəngindir ki, bu amil də bu ərazilərin iqtisadi əhəmiyyətini ön plana çəkir. Dağlıq Qarabağ və onun ətrafı olan Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Füzuli, Cəbrayıl və Ağdam rayonlarının hər biri kifayət qədər

əhəmiyyətli xammal ehtiyatlarına malikdir. Adı çəkilən rayonlarda civə, dəmir, mis, qızıl, mərmər, xromit, perlit, əhəng və digər tikinti inşaat materialları resursları mövcuddur. Məsələn elə Cəbrayıl rayonunun bərpası üçün lazım ola biləcək bütün inşaat materialları demək olar ki rayonun öz ərazisində mövcuddur; mişar daşı istehsalı üçün Tulus tuf,  Çaxmaqçay, tikinti qumu, kərpic istehsalına yararlı Qaracallı gil, sement istehsalına yararlı vulkan külü, gəc, əhəngdaşı qum-çınqıl və meşə ehtiyatları. Həmçinin Zəngilan rayonundakı Vejnəli, Kəlbəcər rayonu ərazisindəki Zod, Ağdərə rayonundakı Qızılbulaq yataqları kifayət qədər zəngin qızıl xammalına malik yataqlardır.

İşğaldan azad edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları vardır. Qeyd olunan faydalı qazıntılar barədə məlumatı daha oxunaqlı və rayonlar üzrə aydın şəkildə aşağıda qeyd olunan cədvəldə göstərmək olar.

Yuxarıda qeyd olunan yataqlarda 133 tona yaxın qızıl, 190 milyon kubmetr mişar daşı, 1,5 milyon ton gəc, 18,4 milyon kubmetr üzlük daşı, 23,2 milyon kubmetr gil, 37 min ton qurğuşun, 58,0 milyon ton tikinti daşı, 97,0 milyon ton qum-çınqıl, 1900,0 ton civə, 4,5 milyon kubmetr perlit, 2,1 milyon ton kubmetr pemza, 129,8 milyon kubmetr soda istehsalında istifadə olunan əhəndaşı, 147,1 milyon ton sement xammalı və s. ölkə iqtisadiyyatı və sənayesi üçün xüsusi əhəmiyyətə malik olan faydalı qazıntı ehtiyatları aşkar olunmuşdur.

İqtisadi rayonlar üzrə bölgünün yenidən aparılması həmin regionda yeni qurulacaq iqtisadi-sosial siyasətin və bərpa-quruculuq işlərinin aparılması, vahid proqram əsasında təşkil olunması və səmərəli idarəetmənin qurulması baxımından tələb olunurdu. Ölkə başçısının tapşırıq və tövsiyyələrinə uyğun olaraq postkonflikt əraziləri BMT tərəfindən təsdiq olunmuş davam inkişaf məqsədləri və dördüncü sənaye inqilabının prinsiplərinə əsasən lokal imkanlar, xarakterik xüsusiyyətlər və gələcək gözləntilər əsas götürülməklə inkişaf etdiriləcək.

Azad olunmuş ərazilər üzrə bərpa strategiyası hazırlanmalı və bu qısa, orta və uzun müddətli dövrləri özündə ehtiva etməklə yerli və regional müstəvidə fəaliyyət planlarını da özündə cəmləşdirməlidir. Strategiya üzrə müəyyən olunmuş hədəflərə çatmaq üçün düzgün idarəetmə sistemi qurulmalı və hökumət tərəfindən stimullaşdırıcı makro və mikroiqtisadi, fiskal, monetar və sosial siyasət həyata keçirilməlidir. Həmçinin ərazilərin bərpası işində dövlət tərəfindən böyük məbləğdə investisiya layihələrinin icra olunacağını nəzərə alaraq, bununla yanaşı digər xarici iştirakçıların da iştirakını əlaqələndirən

donor koordinasiyası mexanizminin də yaradılmasına ehtiyac vardır. Bu hazırlanacaq yenidənqurma strategiyasının əsas hədəfi iqtisadi dinamikliyin bərpası və insanların yerləşməsinin təmin olunmasından ibarət olmalıdır. Dünya təcrübəsində İraq, Xorvatiya, Kosova kimi ölkələrdə postkonflikt ərazilərin iqtisadi durumunun bərpası təcrübəsinə baxsaq görərik ki, müharibədən çıxmış ölkələrin iqtisadiyyatı az inkişaf etmiş digər ölkələrin iqtisadiyyatları ilə müqayisədə daha ağır çətinliklərlə qarşılaşırlar. Bu kimi problemlərə iqtisadi kiçilmə, iki rəqəmli və hətta hiper inflyasiya, mütəmadi hala çevrilən büdcə kəsiri, dövlətin böyük məbləğdə borclanması,yoxsulluğun və işsizliyin artımı, dağıdılmış maddi əmlaklar, tikililər, mədəni abidələr, sosial infrastrukturu nümunə kimi göstərmək olar. Ölkəmizin mövcud valyuta ehtiyatları, düşünülmüş iqtisadi siyasət və düzgün idarəetmənin təşkili nəticəsində bu kimi problemlərlə qarşılaşmadan bərpa quruculuq işlərini böyük sürətlə həyata keçirdiyi göz qabağındadır.

Həmçinin beynəlxaq təcrübəyə əsasən, bərpa quruculuq işləri çərçivəsində ilk növbədə insan resursları dəyərləndirilir ki, burada da əsasən müharibə bölgəsinin insanlarını nəzərdə tuturlar. Belə qəbul olunur ki, burada yaşayan əhali xarici tərəfdaşların dəstəyini gözləməli deyil, özləri aktiv şəkildə bərpa quruculuq işlərində iştirak etməklə müsbət töhvələrini verməlidirlər. BMT-nin inkişaf proqramında da göstərilir ki, lokal əhali yenidən qurma işlərində aktiv paya malik olmalıdırlar (https://vergiler.az/news/economy/10954.html).

İşğaldan azad olunmuş ərazilərin bərpasına və inkişafına yönəlik iqtisadi siyasətin həyata keçirilməsi üçün təbii ki, ilk növbədə maliyyə resurslarına ehtiyac vardır. Bu məqsədlə bir çox maliyyə resurslarından, əsasən dövlət büdcəsindən, Neft fondunun vəsaitlərindən, beynəlxalq kredit ittifaqları tərəfindən ayrılan kreditlər, qrant və ianələr, həmçinin qanunla istifadəsi məhdudlaşdırılmayan digər maliyyə vəsaitlərindən istifadə oluna bilər. Artıq indidən görünür ki, xarici şirkətlərin və investorların bərpa quruculuq işlərinə maraqları böyükdür və bir çox layihələrin icrasında artıq iştirak da edirlər.

Bərpa quruculuq işləri yekunlaşdıqdan sonra iqtisadiyyatın qısa müddətdə canlanması üçün regionda xüsusi stimullaşdırıcı və təşviqedici iqtisadi siyasətin həyata keçirilməsi zəruridir. Təbii ki, dövlət bu stimullaşdırıcı tədbirləri həyata keçirmək üçün əsas iqtisadi alətlər olan vergi və gömrük güzəştlərindən, azadolmalarından istifadə etməklə həyata keçirə bilər.

Regionda yeni yaradılacaq sənaye parklarının rezidentləri üçün artıq qanunvericilikdə bu güzəştlər öz əksini tapmışdır. Belə ki, ilk növbədə parkın rezidentləri AR VM-ə əsasən böyük güzəştlər ilə əhatə olunmuşdur. VM-nin 13-cü maddəsində ilk olaraq sənaye parkının rezidenti anlayışı verilmişdir (AR Vergi Məcəlləsi,2021).

Daha sonra isə VM-nin 102.1.21-ci və 106.1.13-cü maddələrinə əsasən parkların rezidenti olan fiziki şəxslərin gəlirləri və hüquqi şəxslərin mənfəətləri sənaye parkında uçota durduğu hesabat ilindən etibarən 10 il tarixə gəlir və mənfəət vergisini ödəməkdən azad edilirlər. Təbii ki, 10 il müddətinə gəlir və mənfəət vergisindən azad olunma sahibkarlarda bu parklarda fəaliyyət göstərməyə böyük maraq yaratmaqla, eyni zamanda əldə etdikləri mənfəəti yenidən investisiya şəklində fəaliyyətlərinin genişləndirilməsinə sərf etmək imkanı yaradır. Bu isə dövlət tərəfindən bu sahibkarlara əlavə maliyyə resursu təqdim etməsi anlamına gələ bilər. Digər çox önəmli bir güzəşt isə parkın rezidentlərinə əlavə maliyyə resursu sərf etmədən,başqa sözlə maliyyə vəsaitlərinə qənaət etməklə istehsal yerlərinin tikintisi, elmi-tədqiqat və təcrübə-konstruktor işlərinin görülməsi, həmçinin idxal olunan texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı AR VM-nin 164.1.16-cı maddəsinə əsasən əlavə dəyər vergisindən azad olunur. Bundan da əlavə, VM-nin 164.1.28-ci maddəsinə əsasən parkın rezidentləri müəyyən olunmuş fəaliyyətinə uyğun olaraq, bu fəaliyyətin həyata keçirilməsi üçün tələb olunan bütün malların idxalı 2016-cı il mayın 1-dən 10 il müddətinə əlavə dəyər vergisindən azad olunur (AR Vergi Məcəlləsi,2021).

Qeyd olunan gəlir, mənfəət və ƏDV üzrə verilmiş güzəştlərdən əlavə əmlak və torpaq vergisi üzrə də tam həcmdə vergi azad olmaları verilmişdir. Belə ki, AR VM-nin 199.7-ci və 207.3-cü maddələrinə əsasən parkın rezidentləri parkın ərazisində uçota durduqları ildən etibarən fəaliyyətləri üzrə istifadə olunan əmlak və torpaq sahələrinə görə 10 il müddətinə vergi ödəməkdən azad olunurlar.

Vergi güzəştlərindən əlavə parkın rezidentləri üçün istehsal prosesində istifadə olunacaq qurğuların, avadanlıqların və istehsal vasitələrinin idxalı Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanununun 20.0.19-cu maddəsinə əsasən parkın ərazisində qeydiyyata alındıqdan sonra 7 il müddətinə, istehsal fəaliyyətləri üzrə bağlı tələb olunan bütün növ malların idxalı üzrə isə bu qanunun 20.0.20-ci maddəsinə əsasən 2016-cı ilin 1 may

tarixindən 10 il müddətə gömrük rüsumları ödəməkdən azad olunurlar (http://www.e-qanun.az/framework/26154).

İşğaldan azad olunacaq ərazilərdə yaradılacaq sənaye parklarının idarəedici təşkilatı və ya operatoruna isə parkın rezidentlərindən də artıq stimullaşdırıcı güzəştlər tətbiq olunacaqdır. Parkın rezidentlərindən fərqli olaraq mənfəət vergisi üzrə güzəşt parkın operatoruna biraz fərqli formada verilmişdir. Belə ki, AR VM-in 106.1.12-ci maddəsinə əsasən yaradılacaq parkın operatorunun mənfəətinin bu parkın infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsi mənfəət vergisindən tam şəkildə azad olunur. Güzəştlər ilə bağlı digər mühüm fərq isə yuxarıda qeyd olunan əlavə dəyər vergisi, əmlak və torpaq vergisi üzrə müddətli güzəştlərin parkın idarəedici təşkilatı və ya operatoru üzrə müddətsiz tətbiq olunmasıdır. Həmçinin Gömrük tarifi haqqında qanuna əsasən da malların idxalı ilə bağlı gömrük rüsumlarından azadolma da operatorlar üçün müddətsiz tətbiq olunmaqdadır.

Qeyd olunanlardan əlavə işğaldan azad olunmuş ərazilərimizə parkdan kənarda fəaliyyət göstərməklə və investisiya qoymaqla yeni fəaliyyətə başlayacaq sahibkarlara investisiya təşviqi sənədinin təqdim edilməsi də həyata keçiriləcək ki, bununla da bu sahibkarlara da geniş güzəştlər verilməklə böyük imkanlar yaradılacaq. Bu sənədin məqsədi və alınması ilə bağlı fəslin birinci hissəsində məlumat verildiyini nəzərə alaraq, investisiya təşviqi sənədinin sahibkara verdiyi güzəşt və imkanlardan söz açmaq yerinə düşərdi. İnvestisiya təşviqi sənədinin verilməsi qaydaları müəyyən olunduqdan sonra AR VM-ə və Gömrük tarifi haqqında AR Qanununa dəyişikliklər edilərək qanunvericiliklə müvafiq güzəştlərin verilməsi təmin edilmişdir. “ AR VM-ə dəyişikliklər edilməsi haqqında” 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanuna əsasən sahibkarlara vergilər üzrə bir çox güzəştlər verilmişdir.

VM-ə edilmiş dəyişikliklərlə ilk növbədə Məcəlləyə 13.2.58-ci maddə kimi investisiya təşviqi sənədi anlayışı salınmışdır.

Bundan əlavə bu sənədi almış şəxslər ilə bağlı vergitutma məsələlərinin tənzimlənməsi ilə bağlı VM-ə 67-2-ci maddə də əlavə olunmuşdur. Bu maddə investisiya təşviqi sənədi alan şəxslərin sənədi aldıqdan sonra güzəşt müddəti başa çatmamış fəaliyyət göstərdiyi təsərrüfat subyektlərini digər şəxsə təqdim etdikdə yeni yaranan münasibətləri, həmçinin vergi ödəyicisinin investisiya təşviqi sənədi almaqla həyata keçirdiyi fəaliyyətlə yanaşı digər fəaliyyətlə də

məşğul olması, investisiya təşviqi sənədinin ləğv olunduğu hallarda vergitutma məsələlərini tənzimləyir. Vergi Məcəlləsinin növbəti maddələrində isə müvafiq olaraq vergi növləri üzrə güzəştlər qeyd olunmuşdur. VM-in 102.1.23-cü və 106.1.17-ci maddələrinə müvafiq olaraq gəlir və mənfəət vergisi üzrə yuxarıda qeyd olunan sənaye parkının rezidentlərindən fərqli olaraq tam həcmdə deyil, investisiya sənədi almış şəxslərə bu sənədi aldıqları tarixdən etibarən 7 il müddətinə əldə etdikləri gəlir və mənfəətin 50 faizi həcmində güzəşt verilmişdir. Həmçinin sənaye parklarının rezidentlərində olduğu kimi istehsal prosesində istifadə olunacaq texnikanın, avadanlıq və qurğuların idxalı bu sənəd alındıqdan 7 il müddətinə əlavə dəyər vergisindən və gömrük rusumlarından azad olunmuşdur. Həmçinin VM-in 199.11-ci maddəsinə əsasən investisiya təşviqi sənədi çərçivəsində əldə olunmuş əmlaklar, 207.5-ci maddəyə əsasən isə mülkiyyətində və istifadəsindəki torpaq sahələri bu sənədin əldə olunmasından etibarən 7 il müddətinə vergidən azad olunmuşlar (AR Vergi Məcəlləsi,2019).

Qeyd olunan güzəşt və azadolmalara baxdıqda görürük ki, sənaye parkının rezidentləri üçün güzəştlər daha böyük həcmli və cəlbedicidir. Burada əsas fərq gəlir və mənfəət vergisi növləri üzrə gözəçarpır ki, burada da 50 faizlik bir fərq vardır. Bu isə sənaye parkının rezidentləri üçün maliyyə resurslarına daha çox qənaət etməklə yeni layihələri icra etməsinə böyük stimul yaradır.

Yuxarıda adı çəkilən güzəşt və azadolmaları vahid formaya salaraq daha oxunaqlı şəkildə aşağıdakı cədvəldəki kimi verə bilərik:

**Cədvəl 1: Azad olunmuş ərazilərdə yeni yaradılacaq iqtisadi subyektlər üzrə nəzərdə tutulan güzəştlər**

| Vergitutma subyekti | Güzəşt və azadolunma verilən vergi növləri | | | | |
|---|---|---|---|---|---|
| | Mənfəət və gəlir vergisi | Torpaq və əmlak vergisi | Avadanlıq idxalı üzrə ƏDV | Digər idxal ilə bağlı ƏDV | Gömrük rüsumları |
| Sənaye parkının operatoru | Müddətsiz azadolma | Müddətsiz azadolma | Müddətsiz azadolma | - | Müddətsiz azadolma |
| Sənaye parkının rezidenti | 10 il tam azadolma | 10 il tam azadolma | 10 il tam azadolma | 2026-cı il 1 maya qədər tam azadolma | 7 il tam azadolma |
| İnvestisiya təşviqi sənədi alan şəxslər | 7 il 50 faiz güzəşt | 7 il tam azadolma | 7 il tam azadolma | - | 7 il tam azadolma |

**Mənbə**: Cədvəl Azərbaycan Respublikası Vergi Məcəlləsi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının 13 iyun 2013-cü il tarixli № 687-IVQ Qanunu istifadə olunmaqla müəllif tərəfindən hazırlanmışdır.

Sahibkarlarla yanaşı bu regiona köçəcək əhalinin keçmiş məcburi köçkünlər olmasını nəzərə alsaq, həmçinin torpaqların azad olunması yolunda canından keçən şəhidlərimizi və qazilərimizi də nəzərə alsaq, onların da VM-ə 2022-ci ildən etibarən edilmiş dəyişiklərlə müxtəlif vergi güzəştləri ilə əhatə olunması dövlətin bu sahədə siyasətinin tək iqtisadi deyil, həmçinin sosial maraqlara da cavab verdiyini demək olar. Məcburi köçkünlərin aylıq gəlirlərindən 100 manat miqdarında gəlir vergisindən azad olunması və ya həlak olmuş döyüşçülərin ailə üzvlərinə aylıq gəlirlərindən 400 manat məbləğ azadolmanın verilməsi uzun müddətdir ki tətbiq olunsa da, şəhid ailələri və Vətən müharibəsi qazilərinə güzəştlərin verilməsi bu ildən tətbiq olunmağa başlamışdır. Bu qəbul edilmiş dəyişikliklərdə məqsəd qeyd olunan sosial təbəqənin maliyyə-vergi yükünün azaldılması ilə onların daha çox dövlət dəstəyi ilə əhatə olunmasıdır. İlk belə dəyişiklik kimi, ikinci Qarabağ müharibəsi iştirakçılarının banklara olan borclarının silinməsindən əldə olunan gəlirlərin vergidən azad olunmasını göstərmək olar. Digər bir dəyişiklik ilə şəhidlərimizin və qazilərimizin əldə etdikləri maliyyə yardımlarının onun təyinatından asılı

olmayaraq gəlir vergisindən azad olunması ilə bağlıdır. Gəlir vergisi üzrə verilmiş yeni bir güzəşt isə ölkə ərazisində müalicənin, həmçinin cərrahi əməliyat xərclərinin qarşılanması üçün maddi dəstəyin 10 min manatının, həmçinin digər ölkələrdə aparılan müalicə xidmətləri üzrə isə 50 min manata qədər olan məbləğ gəlir vergisindən azad olunmuşdur. Məlumat üçün qeyd edək ki, bu məbləğlər bundan öncəki redaksiyada müvafiq olaraq min və 2 min manat idi ki, bu da bugünkü səhiyyə sahəsindəki mövcud qiymətləri nəzərə aldıqda kifayət qədər kiçik məbləğdir.

Beləliklə, bütün bu yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, işğaldan azad olunan ərazilərimizin iqtisadi inkişafı və "Böyük Qayıdış" planının uğurla icra olunması üçün kifayət qədər güclü iqtisadi əsaslar və siyasi iradə vardır və atılacaq məqsədyönlü və ardıcıl tədbirlərin nəticəsində qısa müddətdə Qarabağ bu bölgənin iqtisadi drayverinə çevriləcəkdir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Ölkəmizdə yaradılan bu iqtisadi imkanların, bütün bu qeyd olunan iqtisadi güzəşt və azadolmaların, düzgün həyata keçirilən iqtisadi və vergi siyasətinin məntiqi nəticəsidir ki, artıq 12 ölkənin nümayəndələri olmaqla 53 şirkət işğaldan azad olunmuş ərazilərimizdə bərpa və yenidənqurma işlərində investor və podratçı şəklində iştirak etmək üçün aiddiyəti üzrə ölkəmizin müvafiq strukturlarına müraciətlər etmişlər. Bu şirkətlər əsasən Türkiyə, Rusiya, Pakistan, İtaliya, Macarıstan və Qazaxıstan kimi tərəfdaş ölkələri təmsil edirlər. Ölkəmizdə fəaliyyət göstərən yerli sahibkarlardan isə bu işlərdə iştirak etmək üçün, həmçinin regiona investisiya qoymaqla yeni sahibkarlıq fəaliyyətinə başlamaq üçün 409 müraciət olunmuşdur. Bu müraciətlərin 25%-i, yəni 104-ü ticarət və xidmət sahəsində, 23%-i, başqa sözlə 93-ü isə sənaye məhsullarının istehsalı sahəsində fəaliyyət göstərmək niyyətindədirlər (Vaqif Bayramov,14 mart 2021-ci il,"Qələbəmizin memarı",Xalq qəzeti,səh1).

Həmçinin xarici investorlar üçün digər bir cəlbedici məqam ondan ibarətdir ki, dünyada və ölkəmizdə pandemiya şəraiti ilə bağlı iqtisadi artımın zəifləməsi, səhiyyə xərclərinin artımı və dünyada baş verən geosiyasi vəziyyətin fonunda, "S&P Global Ratings" beynəlxalq agentliyi ölkəmizin reytinqini "BB+" göstəricisində saxlamış, reytinq gözləntilərini "mənfi"dən "sabit"ə yüksəltmişdir. Bu müsbət dinamikanın əsas səbəbi isə uzun illər ölkəmizdə mövcud olan müharibə şəraitinin və müharibə risklərinin Qarabağ probleminin

həll edilməsi yolu ilə minimuma enməsidir. Bütün bu göstəricilər də, ölkəmizdə həyata keçirilən təşviqedici iqtisadi siyasətlə yanaşı xarici investorlarda maraq oyatmaqla, həm ölkə iqtisadiyyatına, əsasən də işğaldan azad olunan ərazilərimizin iqtisadi reinteqrasiyası prosesinə müsbət zəmin yaradır.

Onu da qeyd edək ki, bütün bu sadalanan tədbirlərin nəticəsi ilə yanaşı dövlət büdcəsindən 2021-ci və 2022-ci illər üzrə 2,0 milyard manatdan artıq vəsaitin azad olunmuş ərazilərimizin bərpası işinə yönəldilməsinin özü də iqtisadiyyatın canlanmasına və qeyri-neft sektorunun ÜDM-də payının artımına səbəb olan amil kimi çıxış edir. Məlumat üçün qeyd edək ki, 2021-ci il üzrə dövlət büdcəsində ərazilərin bərpası işinin həyata keçirilməsi məqsədilə 2,2 milyard manat vəsait ayrılmışdır ki, bu da ÜDM-in 2,9%-i həcmindədir. Qarabağda həyata keçiriləcək tədbirlər nəticəsində ÜDM-in də növbəti illər üzrə artımı gözlənilməkdədir. Belə ki, 2020-ci il üzrə dünyada baş verən Covid-19 pandemiyası ilə əlaqədar olaraq ölkəmizdə də ÜDM-in həcmində geriləmə olsa da, 2021-ci il üzrə bu rəqəm 2019-cu il ilə müqayisədə 11 milyard manat, 2020-ci ilə müqayisədə isə təxminən 20,4 milyard manat daha çoxdur (https://www.stat.gov.az/news/index.php?id=5100). İqtisadçılarının təhlillərinə əsaslansaq, deyə bilərik ki, növbəti illərdə də azad olunmuş regionda həyata keçirilən bərpa və quruculuq işlərinin nəticəsində ÜDM-də 4,0%-lik bir artım proqnozlaşdırılır (www.ereform.gov.az).

Aydındır ki, bölgədə zəruri infrastruktur layihələri icra olunan kimi iqtisadiyyatın bütün sahələri üzrə, o cümlədən kənd təsərrüfatı, inşaat materialları istehsalı, turizm-rekreasiya, faydalı qazıntıların istismarı kimi rentabelli sahələr üzrə işlərin görülməsinə başlanılacaq. Təbii ki belə gəlirli sahələrin işə düşməsi nəticəsində son illərdə pandemiya səbəbilə müəyyən qədər azalmış iqtisadi aktivlik yenidən yüksələcək, ixrac olunacaq qeyri-neft məhsullarının həcmi artacaq və ölkəyə valyuta daxil olmasında da artım olacaqdır.Bununla bağlı ilkin nəticələri yaxın gələcəkdə artıq istər ÜDM-də, istərsə də dövlət büdcəsinin gəlirlərində hiss etməliyik. Həmçinin növbəti gözlənilən bir nəticə bu ərazilərdə yaranacaq sənaye parklarında və digər ərazilərdə sənaye istehsalı müəssisələrinin fəaliyyətinin nəticəsində ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafına nail olunmaqla, ölkənin müəyyən sənaye malları üzrə idxaldan asılılığı da əhəmiyyətli dərəcədə azalacaqdır.

Beləliklə, dissertasiya işində bütün qeyd olunanları nəzərə alaraq, işğaldan azad edilmiş ərazilərimizdə iqtisadi inkişafın və iqtisadi reinteqrasiya

prosesinin sürətli şəkildə həyata keçirilməsi, regionun iqtisadi aktivliyinin qısa zamanda təmin edilməsi məqsədi ilə, bölgədə fəaliyyətə başlayacaq investorlar və sahibkarlarda maraq doğuracaq iqtisadi stimullaşdırıcı tədbirlər kimi aşağıda qeyd olunanları təklif edirik:

1. İşğaldan azad edilmiş ərazilərə investisiya qoymaqla yeni yaradılacaq kapital tutumlu istehsal müəssisələrinə cəlb olunan investisiya qədər mənfəət vergisi üzrə güzəştərin verilməsi.

2. Regionda yeni fəaliyyətə başlayacaq turizm fəaliyyəti məşğul olacaq sahibkarlıq subyektlərinə münasibətdə differensial əlavə dəyər vergisinin tətbiqi.

3. Sənaye parklarından kənarda yeni fəaliyyətə başlayacaq sahibkarlıq subyektlərinə istehsal, sənaye, turizm, pərakəndə ticarət və ictimai iaşə sektoru üzrə mənfəət, əmlak və torpaq vergilərindən 7 il müddətinə tam azadolma.

4. Sadələşdirilmiş vergi növünün ödəyicisi olaraq fəaliyyət göstərəcək mikro sahibkarlıq subyektləri üzrə sadələşdirilmiş verginin dərəcəsinin 7 il müddətində 1% dərəcə ilə tətbiq olunması.

5. "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz" almaqla fəaliyyət göstərməli şəxslərin ödədikləri məbləğlər üzrə 50 faiz güzəştlərin verilməsi.

6. Dövlət mülkiyyətində olan torpaq sahələrinin və meşə təsərrüfatı idarələrinin balansında olan dövlət torpaqlarının icarəsi üzrə 7 il müddətinə 50%-lik güzəştlərin verilməsi.

7. İşğaldan azad edilmiş ərazilərdə yeni yaradılacaq və həmin ərazilərdə fəaliyyət göstərəcək hüquqi şəxslərin, o cümlədən xarici investisiyalı hüquqi şəxslərin səhmdarlarının (payçılarının) dividend gəlirlərinin vergidən tam azad edilməsi.

8. İşğaldan azad edilmiş ərazilər daxilində həyata keçirilən sərnişin daşıma xidmətlərinin sadələşdirilmiş vergidən tam həcmdə azadolması. İşğaldan azad edilmiş ərazilərə və həmin ərazilərdən ölkənin digər regionları arasında həyata keçirilən sərnişin daşıma xidmətlərinə 50 faiz güzəştlərin verilməsi.

## ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının «Vergi Məcəlləsi». Bakı, 2001.
2. Həsənov. Ə. N. (2017) “Vergi inzibatçılığı ” dərslik, Bakı
3. Kəlbiyev. Y.A. (2012). Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri. Bakı
4. Məmmədov F.Ə, Musayev A.F., Sadıqov M.M.,Rzayev Z.H.,Kəlbiyev Y.A. (2010) “Vergilər və vergitutma”.Dərslik.Bakı,512 səh.
5. Məmmədov Ə.C., Seyfullayev İ.Z., (2013) “Vergi və investisiya mühiti”, Bakı, 376 səh.
6. Musayev A.F., Kəlbiyev Y.A., Hüseynov A.Y. (2012) “Azərbaycan Respublikasının vergi xidməti:islahatlar və nəticələr”. Dərs vəsaiti. Bakı
7. Rzayev Z.H., “Vergi menecmenti”. Bakı, 324 səh.
8. Vaqif Bayramov, 14 mart 2021-ci il, “Qələbəmizin memarı”, Xalq qəzeti, səh 1.
9. www.president.az (Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı)
10. www.e-qanun.az (Normativ hüquqi aktların vahid internet elektron bazası)
11. www.taxes.gov.az (Dövlət Vergi Xidmətinin rəsmi saytı)
12. www.economy.gov.az (İqtisadiyyat Nazirliyinin rəsmi saytı)
13. www.maliyye.gov.az (Maliyyə Nazirliyinin rəsmi saytı)
14. www.eco.gov.az (Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi saytı)
15. www.stat.gov.az (Dövlət Statistika Komitəsinin rəsmi saytı)
16. www.minenergy.gov.az (Energetika Nazirliyinin rəsmi saytı)
17. www.ereform.gov.az (İqtisadi islahatların təhlili və kommunikasiya mərkəzinin rəsmi saytı)

# ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONUNUN İNVESTİSİYA POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Vəliyev Orxan**
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

## Xülasə

İşğaldan azad edilmiş Şərqi Zəngəzurun istər kənd təsərrüfatı, istər turzim sahəsi, istərsə də sənaye sahəsi üzrə resurslara malik olması bu ərazinin investisiya potensialının qiymətləndirilməsi üzrə olan tədqiqatın aktual məsələ olduğunu deməyə əsas verir. Tədqiqatın əsas məqsədlərini yenidən qurma işlərinin gedişatında həyata keçirilməsi əhəmiyyətli hesab olunan məsələlər üzrə investisiya potensialının təhlil edilib qiymətləndirilməsi və yönəldiləcək investisiyaların gələcəkdə doğura biləcəyi mümkün nəticələr haqqında proqnoz vermək olaraq sadalamaq olar. İnvestisiya mühitini qiymətləndirərkən PEST analiz üsulundan istifadə etməklə müxtəlif faktorlar üzrə qiymətləndirilməsi tədqiqat işininin üçüncü fəslində öz əksini tapmışdır. Həmiçinin güclü və zəif tərəfləri, imkanları və təhlükələrin qiymətləndirilməsinə əsaslanan SWOT analiz metodundan və onun törəmə metodu hesab olunan TOWS matrisdən istifadə olunmuşdur. Tədqiqatın informasiya bazasını əsasən, beynəlxalq elmi jurnallarda çap olunmuş məqalələr, statistika komitəsi, müvafiq rayonların mərkəzi icra hakimiyyəti orqanlarının rəsmi veb səhifələrində yerləşdirdiyi məlumatlar, dövlət vəzifəli şəxslərin verdiyi məlumatlar və digər rəsmi qurumlardan əldə edilmiş məlumatlardan ibarətdir. Həmin ərazilərin minalarla çirklənməsi ölçmə və qiymətləndirmə işlərini məhdudlaşdırır. Bu səbəbdən post-müharibə dövründə belə işlərin sayı azdır. İnvestisiya potensialının qiymətləndirmə prosesində istinad ediləcək məlumatların az olmasını tədqiqat işinin məhdudiyyətidir. Tədqiqat işinin sonuncu fəslində təhlilin nəticəsi olaraq bir sıra təklif və proqnozlar verilmişdir ki, həmin ərazilərdə investisiya fəaliyyəti məşğul olmaq istəyən subyektlər tərəfindən qərarvermə prosesində nəzərə alına bilər. PEST analizin nəticəsində alınmış faktorlar isə sərmayedarlara hansı investisiya mühiti ilə qarşılaşacaqları haqqında fikir formalaşdırmaqda kömək olacaq.

***Açar sözlər**: Şərqi Zəngəzur, investisiya potensialı, “Araz Vadisi İqtisadi Zonası”, SWOT analiz*

## Giriş

Azərbaycanda 2030-cu ilə qədər həyata keçirilməsi nəzərdə tutulan sosial-iqtisadi inkişaf üzrə müəyyən edilmiş milli prioritetlərdən biri də işğaldan azad olunmuş bölgələrimizə, eləcə də Şərqi Zəngəzur iqtisadi rayonuna böyük qayıdışa nail olunmasıdır. Bu məqsəd həyata keçirilərkən əsasən iki istiqamət üzrə işlərin görülməsi planlaşdırılır. Birincisi dayanıqlı məskunlaşmanın təmin olunmasıdır ki, bu da öz növbəsində tikinti sənayesi üzrə investisiya potensialının qiymətləndirilməsini zəruri edir. İkinci istiqamət olaraq isə həmin ərazilərin iqtisadi fəaliyyətə yenidən inteqrasiya edilməsinə və digər rayonlara uyğun inkişaf səviyyəsinə malik olmasına nail olmaqdır. Bu məqsəd üçün isə ilk növbədə kənd təsərrüfatı, sənaye, turizm kimi iqtisadi fəaliyyətlərin qurulması üçün investisiya potensialının qiymətləndirilməsi həyata keçirilməlidir.

Ərazilərin investisiya potensialının qiymətləndirilməsi məsələsi post-müharibə dövründə bərpa işlərinin aparılması və ölkənin qalan hissəsi qarşılıqlı şəkildə inkişafına nail olunması üçün vacib əhəmiyyət kəsb edən işlərdəndir. Bu məsələdə yerli investisiyalarla yanaşı xarici investisiyaların da cəlb olunması məsələsi işlərin tempini artıran faktor olmaqla yanaşı ölkənin iqtisadi inkişafını şərtləndirir.

Şərqi Zəngəzur haqqında əvvəllər yerinə yetirilmiş olan tədqiqatları təhlil etməklə məlumatları toplamaq, və başqa tədqiqatçıların təcrübəsindən yararlanaraq tədqiqat işində tətbiq etməkdən ibarət olmuşdur. Empirik metodda isə işğaldan əvvəlki dövrün məlumatları ilə indiki dövrün məlumatlarının müqayisəsi işləri aparılmış və həmin ərazilər üçün müəyyən olunmuş konsepsiya təhlil olunmuşdur. Həmiçinin güclü və zəif tərəflərin, imkanlar və təhlükələrin qiymətləndirilməsinə əsaslanan SWOT analiz metodundan və onun törəmə metodu hesab olunan TOWS matrisdən istifadə olunmuşdur.

**İnvestisiya potensialinin qiymətləndirilməsinin nəzəri-metodoloji əsaslari.** İnvetisiya potensialı qiymətləndirilərkən istifadə oluna biləcək metodlardan biri SWOT analiz metodudur. Fikrimizcə, Şərqi Zəngəzur iqtisadi rayonun investisiya potensialının qiymətləndirilməsi zamanı beynəlxalq

səviyyədə də tanınmış olan SWOT analiz metodu ilə yanaşı TOWS matrisi metodundan da istifadə etmək məqsədəuyğundur.

SWOT analiz mahiyyət etibarı ilə daxili faktorlar olan güclü tərəflər (strengths), zəif tərəflərin (weaknesses) və xarici fatkorlara aid edilən imkanlar (oppotunities), təhlükələrin (threats) tədqiq edilməsindən ibarətdir. SWOT analiz bir çox hallarda ümumi olaraq məsələlərin nə olduğunu müəyyənləşdirmək və ümumi terminlərlə izah etmək səviyyəsində qalır. Lakin buna baxmayaraq adı çəkilən analiz metodu qiymətləndirmə və strategiya qurulması proseslərində yaxşı baza təmin edə bilir (Kangas J. və başqaları, 2003, Ganjali S. və başqaları, 2014).

TOWS matrisi metodunun isə SO, ST, WO, WT adlanan 4 hissəsi vardır, hansılar ki, müvafiq olaraq TOWS matrisindən (cədvəl 1.) alınmış koponentlərdir.

**Cədvəl 1: TOWS matrisi**

| TOWS matrisi | Xarici İmkanlar (O)<br>1. | Xarici Təhlükələr (T)<br>1. |
|---|---|---|
| Daxili Güclü tərəflər (S)<br>1.<br>2.<br>3. | SO İmkanları artırmaq üçün güclü tərəflərdən istifadə edən strategiyalar | ST Təhlükələri minimuma endirmək üçün güclü tərəflərdən istifadə edən strategiyalar |
| Daxili Zəif tərəflər (W)<br>1.<br>2.<br>3. | WO İmkanlardan istifadə edərək zəif tərəfləri minimuma endirən strategiyalar | WT Zəif tərəfləri minimuma endirən və təhdidlərdən qaçan strategiyalar |

**Mənbə:** Weihrich 1982, Aslan I. və başqaları 2012, “Creating strategies from tows matrix for strategic sustainable development of Kipaş Group”

Cədvəldən göründüyü kimi daxili güclü tərəflərlə xarici imkanları uyğunlaşdırıb nəticəsi SO xanasında, daxili zəif tərəflərlə xarici imkanların nəticəsi WO xanasında, daxili güclü tərəflərlə xarici təhlükələri uyğunlaşdırıb nəticəsi ST xanasında, daxili zəif tərəflərlə xarici təhlükələri uyğunlaşdırıb nəticəsi WT xanasında qeyd edilir.

Hazırda region iqtisadiyyatının investisiya cəlbediciliyini qiymətləndirmək üçün başqa bir neçə metodlar və göstəricilər də mövcuddur. Bununla yanaşı, regionun investisiya cəlbediciliyinin qiymətləndirilməsində əsas məqamlardan biri də mühüm prinsiplərə əsaslanan göstəricilər çərçivəsinin formalaşdırılmasıdır. Olshanskayanın fikri ilə razılaşaraq qeyd etmək lazımdır ki, regionun investisiya cəlbediciliyinin qiymətləndirilməsi üçün indikator çərçivəsinin formalaşdırılması üçün əsas bir neçə prinsip nəzərə alınmaqla yaradılmalıdır (Vershinina A.A. və başqaları, 2015).

Regionun investisiya cəlbediciliyinin qiymətləndirilməsi investisiya axınının öyrənilməsi, proqnozlaşdırılması və tənzimlənməsi üçün zəruri vasitədir. Müasir tədqiqatlarda investisiya fəaliyyəti regiona investisiya axınının müşahidə olunan və kəmiyyətcə ölçülən parametri kimi, investisiya cəlbediciliyi isə investisiya axınının intensivliyinə təsir edən əlamətlər, amillər və şərtlərin məcmusu kimi nəzərdən keçirilir. Nəticə etibarı ilə investisiya fəaliyyətini investisiya cəlbedicilik səviyyəsindən birbaşa asılı olan göstərici hesab etmək olar. Lakin investisiya fəaliyyətinin ölçülmə üsulları kifayət qədər aydındırsa (bu, məsələn, regionda əsas kapitala investisiyalar və ya regiona birbaşa xarici investisiyaların həcmi ola bilər), onda regionun investisiya cəlbediciliyinin qiymətləndirilməsi kifayət qədər zəhmət tələb edən bir çoxmərhələli prosesdir (Jumaev N.X. və başqaları, 2019).

İnvestisiyalar regionların iqtisadi inkişafının və milli gəlirinin artmasının təminatıdır (Golaydo I. M. və başqaları, 2015).

Hazırda dünya iqtisadiyyatının artan qloballaşması və beynəlxalq əmək bölgüsünün dərinləşməsi, malların və xidmətlərin sərbəst hərəkəti ilə bağlı amillər resurs səfərbərliyi uğrunda rəqabət aparan ərazilərin investisiya cəlbediciliyinə tələblərin artmasına səbəb olmuşdur. İnvestisiya siyasətinin səmərəliliyindən istehsal göstəriciləri, əsas vəsaitlərin mövcudluğu və tutumu, habelə onların modernləşdirilməsi vəziyyəti, iqtisadiyyatda struktur dəyişikliyi, sosial və ekoloji problemlərin həlli asılıdır (Polyakova A. G. və başqaları, 2019).

Birbaşa xarici investisiyaların (BXİ) iqtisadi artıma təsiri iqtisadi ədəbiyyatda geniş müzakirə olunur. Bu tədqiqat sahəsinə artan maraq da son illərdə siyasətçilər arasında daha çox BXİ-nin cəlb edilməsinə diqqətin dəyişməsi ilə üst-üstə düşür. 1980-ci illərin əvvəllərindən etibarən bir çox ölkələr (o cümlədən, inkişaf etməkdə olan ölkələr) xarici kapital axınına qoyulan bir çox

məhdudiyyətləri aradan qaldırdılar. Nəticədə, birbaşa xarici investisiyaların qlobal axını 1982-ci ildəki 57 milyard dollardan 2000-ci ildə 1,271 milyard dollara qədər kəskin artdı. Daha çox BXİ cəlb etmək üçün səylərin artırılmasının səbəbi, BXİ-nin məhsuldarlığın artırılması, yeni texnologiyaların transferi, beynəlxalq istehsal şəbəkələri ilə əməkdaşlıq, yerli bazarda yeni proseslərin, idarəetmə təcrübələrinin və texniki nou-haunun tətbiqi, işçilərin təlimi də daxil olmaqla bir sıra müsbət təsirlərə malik olduğuna dair geniş yayılmış inamdan irəli gəlir. Bundan əlavə, birbaşa xarici investisiya kapitalın digər formaları (məsələn, qısamüddətli kapital) kimi dəyişkən deyil və buna görə də daha az dağıdıcıdır (Azman-Saini W.N.W və başqaları, 2010).

Makroiqtisadi nəzəriyyə bildirir ki, Azərbaycan kimi əksər inkişaf etməkdə olan ölkələrdə daxili investisiyaların artması iqtisadi artıma gətirib çıxaracaq. İqtisadi artım həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrin əsas məqsədidir. Dünyanın bir çox ölkələrinə sərmayə qoyuluşu ilk növbədə iqtisadi amil olduğundan bu sahədə mövcud problemlərin həlli, milli müəssisələrin beynəlxalq istehsal prosesində iştirakının təmin edilməsi, ölkələr arasında investisiya və mal mübadiləsindən maksimum fayda əldə etmək vacibdir. Milli iqtisadiyyatın iqtisadi artım mənbələrinin artması iqtisad elminin əsas problemlərindən biridir. İnvestisiyaların iqtisadi artıma təsiri müzakirə mövzusudur. Bununla belə, bir çox empirik tədqiqatlar investisiya və iqtisadi artım arasındakı əlaqə sualına cavab vermir (Humbatova S. I. və başqaları, 2020).

**İşgaldan azad olmuş Şərqi-Zəngəzurun investisiya potensialının qiymətləndirilməsi və prioritet istiqamətləri.** İnvestisiya potensialının formalaşmasında və təkmilləşdirilməsində yerli əhalinin təsərrüfat vərdişləri əhəmiyyətli rol oynayacaq. Şərqi Zəngəzur ərazisi işğala məruz qalmamışdan əvvəlki dövr ərzində əhalinin əsas məşğuliyyət növlərini kənd təsərrüfatı, sənayenin bəzi növləri və turizm sahələri təşkil edirdi. İşğaldan azad olunmuş bölgələrin infrastrukturunun çox hissəsinin dağıdılmış olması hesaba alsaq, əhəmiyyətli dərəcədə investisiyanın tikinti sahəsinə yönəldilməsi prioritet istiqamət kimi qarşıya qoyulması zərurəti yaranır (www.economy.gov.az).

**Əkinçilik.** Aqrar Tədqiqatlar Mərkəzi tərəfindən aparılan tədqiqatlarda torpaqların tərkibi, yerləşdiyi iqlim və ərazinin quruluşu kimi məhsuldarlığa təsiri olan faktorlar nəzərə alındığı bölgüdə hansı məhsulunun əkini üçün neçə hektar sahə ayrılacağı proqnozlaşdırılmışdır. Şərqi Zəngəzura daxil olan inzibati rayonların əkinçiliyin müxtəlif növlərindən hansı üzrə ixtisaslaşma

potensialı olduğuna aşağıda verilmiş cədvələ əsasən müqayisəli qiymətləndirmək olar (www.atm.gov.az).

**Qrafik 1: Əkin sahələrinin proqnozlaşdırılan strukturu, (ha)**




**Mənbə:** Aqrar Tədqiqatlar Mərkəzi (www.atm.gov.az) saytının materialları əsasında müəllif tərəfindən tərtib olunub

Qrafikə baxdıqda, əkinə yararlı torpaq sahələrinin 20000 hektar potensialında olduğu Cəbrayıl rayonunun 10400 hektar sahəsində taxıl əkiləcəyi proqnozlaşdırıldığını müşahidə etmək olar. Geniş torpaq sahələrində taxıl əkilməsi proqnozlaşdırılan bir digər inzibati rayon Qubadlı rayonudur ki, onun ərazisinin 6300 hektarı bu məqsəd üçün ayrılacaq. Un istehsalında istifadə olunan məhsuldar buğda növlərinin tətbiq olunarsa əkin sahələrindən alınacaq məhsulun köməyi ilə buğda idxalına çəkilən xərcləri minimallaşdırmaq mümkündür (www.atm.gov.az).

**Heyvandarlıq.** Şərqi Zəngəzur kifayət qədər geniş yem bazası təmin edən otlaq və biçənəklərin mövcud olması yem xərclərinin əhəmiyyətli dərəcədə aşağı olmasına gətirib çıxarır ki, bu da öz növbəsində heyvandarlıq sahəsi ilə məşğul olacaq əhalinin yüksək gəlirlər əldə edəcəyini proqnozlaşdırmağa əsas verir. Şərqi Zəngəzur ərazisindən nə qədər məhsul həcminin gözlənildiyinə gəldikdə isə bu sahədə Aqrar Tədqiqatlar Mərkəzi (ATM) müvafiq faktorları nəzərə alan metodologiya ilə hesablayıb proqnoz verib. Həmin proqnozlara əsasən 1980-ci illərdə Şərqi Zəngəzur iqtisadi rayonu ərazisi üzrə 10 min ton olan istehsal həcmi perspektiv dövrdə artaraq 16.5 min ton, Qarabağ iqtisadi rayonunun işğaldan azad olunmuş ərazisi üzrə isə cəmi

17.5 min ton olan həcm müvafiq olaraq artaraq perspektiv dövr üçün 28.8 min ton olacaq. Aqrar Tədqiqatlar Mərkəzinin proqnozlarına inansaq, cəmi olaraq 45.3 ton olaraq proqnozlaşdırılan istehsal həcmi hesabına Azərbaycan tezliklə mal əti və qoyun əti idxal edən ölkədən həmin əmtəələri ixrac edən ölkəyə çevrilməsi imkanı var (www.atm.gov.az).

**Qrafik 2: Şərqi Zəngəzurun inzibati rayonları üzrə 1980-ci illərdə əldə olunmuş və gələcəkdə proqnozlaşdırılan ət istehsalı, min ton**




**Mənbə:** Aqrar Tədqiqatlar Mərkəzi (www.atm.gov.az) saytının materialları əsasında müəllif tərəfindən tərtib olunub

**Turizm.** Şərqi Zəngəzur investisiya potensialını qiymətləndirərkən gəlirli sahə hesab edilən turizm sahəsinin investisiya potensialını qiymətləndirmək yerinə düşər. Kurort istirahət obyektlərinin tikilib istifadəyə verilməsinə, xüsusilə də tarixi əhəmiyyətə malik olan obyekt və tikililərin restavrasiyasına yatırılan investisiyalar turizmin inkişafına zəmin yaratmaqla yanaşı Şərqi Zəngəzurun maddi-mənəvi irsinin dünyaya tanıdılmasında da müstəsna rol oynaya bilər. Tarixi orta əsrlərə qədər söykənən və bu günə qədər qorunub saxlanmış olan qala, məscid, monastr, türbə, körpülər və sair turizm üçün investisiya potensialı olan obyektlər mövcuddur. Şərqi Zəngəzur ərazisində mədəni turizm sahəsi ilə yanaşı ekoturizm sahəsi üçün də investisiya potensialı da vardır. Kəlbəcər ərazisində İstisu və Qoturlu, Laçın ərazisində isə İlıqsu mineral bulaqları bolneoloji əhəmiyyətli sulardır. Həmin kurort mərkəzinin və zavodun işinin bərpası Kəlbəcər inzibati rayonunun və bilavasitə Şərqi Zəngəzur rayonunun iqtisadiyyat üçün əhəmiyyətli gəlir mənbəyinə çevrilməsinə xidmət edəcək.

**Şəkil 1: Şərqi Zəngəzur: turizm potensialı**




**Mənbə:** İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, https://ereforms.gov.az

**Metallurgiya.** Şərqi Zəngəzurun ərazisində sənaye əhəmiyyətli metal yataqlarının mövcud olması mədənçıxarma sənayesinin inkişafı üçün xammal bazası təşkil edir. Kəlbəcərdə Levçay yatağında civə ehtiyyatları dövlət balansında qeydə alınıb. İqtisadi rayon ərazisində olan bir digər sənaye əhəmiyyətli metal isə qızıldır. Kəlbəcər və Laçın rayonlarında belə yataqların mövcud olması mədənçıxarma sənayesi üzrə investisiya potensialının olmasından xəbər verir. Əvvəlki dövrlərdə qeyri-neft sektorunda gəlirlilik həcminə görə ilk üçlüyə daxil olan qızıl ixracı Şərqi Zəngərurda olan analoji sahə üzrə potensiala olunacaq investisiyalar nəticəsində Azərbaycanın mədənçıxarma sənayesindən gəlirlərinin həcmini artıracaq (https://ereforms.gov.az).

**Tikinti.** Şərqi Zəngəzur ərazisinin tikinti sənayesinin investisiya potensialını əsasən iki fərqli prizmadan yanaşmaqla qiymətləndirmək olar. Birinci istiqamət olaraq gips, sement xammalı, mişar daşı, qum-çınqıl və sair kimi resursları nəzərə alınmaqla tikinti materiallarının istehsalı üçün zəruri xammal bazasını təhlil etməklə qiymət vermək. Bu baxış bucağı burada qurulacaq tikinti materiallarının istehsalı ilə məşğul olacaq müəssisələrinin davamlı işləyə bilməsi üçün xammalın əlçatanlığının qiymətlədirilməsinə əsaslanır. Tikinti məhsullarının istehsalı üçün xammal hesab edilən faydalı qazıntılar və dağ süxurları ilə zəngin olan Şərqi Zəngəzur ərazisinin ehtiyyatları rayonlar üzrə aşağıdakı xəritədə göstərilmişdir:

**Şəkil 2: Şərqi Zəngəzur iqtisadi rayonunun inzibati rayonlar üzrə mineral resursları**




**Mənbə:** İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, https://ereforms.gov.az

İkinci istiqamət olaraq isə tikiləcək binaların sayına mütənasib olaraq sərf olunacaq tikinti materialları tələbini nəzərə alınmasına əsaslanır. Bu baxış bucağının mahiyyəti isə ondan ibarətdir ki, tikinti materialları müəssisələri tərəfindən istehsal olunacaq xammala ehtiyac hansı səviyyədə olacaq.

İşğaldan əvvəlki dövr ərzində Şərqi Zəngəzurun əhalisinin mədəniyyət, təhsil, səhiyyə, mənzil və sair məqsədlər üçün istifadə etdiyi binaların sayı aşağıdakı cədvəldə inzibati ərazi vahidləri üzrə verilmişdir. Nəzərə alsaq ki, işğal müddətində Şərqi Zəngəzur iqtisadi rayonuna aid inzibati rayonların ərazisindəki haqqında danışılan tikililər həm uzun müddəd istifadəsiz qalmaq səbəbilə, həm də sökülərək tikinti materialı kimi talan edilməsi nəticəsində yararsız vəziyyətə düşmüşdür, onların bərpası və ya sökülüb yenidən tikilməsi kifayət qədər geniş miqyaslı tikinti materialı istehsal olunmasını tələb edir. Cədvəli təhlil etsək görərik ki, təkcə Kəlbəcər, Laçın, Zəngilan inziabti rayonlarının hər birində 10000-dən çox mənzil təsərrüfatı olub. Quruculuq işlərinə başlanılması müharibə zamanı məcburi köçkün vəziyyətinə düşmüş əhalinin mənzil təminatının yaxşılaşdırılması ilə yanaşı tikinti sənayesinin yaradacağı iş imkanları hesabına məşğulluğun artmasına da səbəb olacaq.

**Cədvəl 2: İnzibati rayonlar üzrə işğaldan əvvəlki dövrdəki binaların sayı**

| | Kəlbəcər | Laçın | Qubadlı | Zəngilan | Cəbrayıl |
|---|---|---|---|---|---|
| mədəniyyət | 86 | 217 | 180 | 128 | 54 |
| təhsil | 222 | 101 | 74 | 123 | 153 |
| səhiyyə | 116 | 142 | 86 | 64 | - |
| mənzil | 13000 | 13745 | 6988 | 10453 | - |

**Mənbə:** İcra hakimiyyətlərinin rəsmi saytlarından əldə olunmuş materiallar əsasında müəllif tərəfindən tərtib olunub

SWOT analiz zamanı əldə olunmuş məlumatlardan istifadə edərək aşağıda göstərilən Şərqi Zəngəzur iqtisadi rayonunun TOWS matrisi (cədvəl 3) əldə olunmuşdur:

**Cədvəl 3: Şərqi Zəngəzur iqtisadi rayonunun TOWS matrisi**

| TOWS matrisi | Xarici İmkanlar (O)<br>1. Ərzaq təhlükəsizliyi<br>2. Geniş məhsul çeşidi<br>3. Məhsulların ixracı<br>4. Turizmin inkişafı<br>5. İqtisadi əlaqələrin artımı | Xarici Təhlükələr (T)<br>1. Nəqliyyat<br>2. Hərbi təhlükəsizlik<br>3. Əhalinin qayıtmama ehtimalı<br>4. Mina təhlükəsizliyi təminatı |
|---|---|---|

| | | |
|---|---|---|
| Daxili Güclü tərəflər (S)<br>1. Sənaye Parkı<br>2. Metallurgiya və tikinti xammalı<br>3. Füsunkar təbiət, mineral bulaqlar<br>4. Hava limanları<br>5. Coğrafi mövqe<br>6. Əkinə yararlı torpaqlar<br>7. Otlaq və biçənəklər | 1. Əkin sahələrini, otlaqları və biçənəkləri səmərəli istifadə edərək ərzaq təminatı səviyyəsini artırmaq<br>2. Sənaye parkında müasir texnologiyalı məhsullar istehsal etmək<br>3. Hava limanları vasitəsilə dünya bazarına məhsul satışı etmək<br>4. Turizm potensialından istifadə etməklə turistlər cəlb etmək<br>5.Zəngəzur dəhlizinin açılması ilə iqtisadi artıma nail olmaq | 1. Alternativ yolların çəkilməsi<br>2. Sülh müqaviləsinin imzalanmasına nail olunması<br>3. Dədə-baba torpaqlarına qayıdacaq olan əhali üçün iş imkanları yaradılması və müvafiq olaraq vergi, gömrük, bank kreditləri üzrə güzəştlərin edilməsi<br>4. ANAMA-ya avadanlıqları alınması üçün vəsait ayrılması |
| Daxili Zəif tərəflər (W)<br>1.Demarkasiya və delimitasiya olmaması<br>2. Minalar və PHS çirklənməsi<br>3. Dağıdılmış infrastruktur<br>4. Dağlıq relyef | 1. İKT və BMT kimi beynəlxalq təşkilatların vasitəçiliyi ilə mina xəritələrinin əldə olunması<br>2. Yerli və xarici tikinti şirkətlərini infrastrukturun bərpası işlərinə cəlb etmək | 1. Bərpa işlərində iştirak edəcək tikinti şirkətlərinə müəyyən güzəştlər olunması<br>2. Əhalini mina və PHS-lərlə çirklənmiş ərazilər haqqında maarifləndirmək |

**Mənbə:** Müəllif tərəfindən aparılmış SWOT analiz nəticəsində alınmış materiallar əsasında müəllif tərəfindən tərtib olunub

İşğaldan azad olunmuş ərazilərdə tez bir zamanda bərpa işlərinin aparılması ilə yanaşı xüsusi yanaşma tələb edən “yaşıl enerji” konsepsiyasına əsaslanan işlərin görülməsi də qarşıya prioritet məsələ kimi qoyulmuşdur. Bərpa oluna bilən enerjiyə əsaslanan və ekoloji cəhətdən daha təmiz olan texnologiyaların tətbiqi nəzərdə tutulan Şərqi Zəngəzur ərazisində yaradılacaq “Araz Vadisi İqtisadi Zonası”-nın yaradılması məqsədilə 2021-ci il büdcəsində işğaldan azad olunmuş bölgələr üçün nəzərdə tutulmuş maliyyə vəsaitindən ilkin olaraq 500000 (beş yüz min) manat ayrılıb və İqtisadiyyat Nazirliyinin sərəncamına verilib (www.e-qanun.gov.az).

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqat nəticəsində əldə olunmuşdur ki, işğaldan azad olunmuş Şərqi Zəngəzur iqtisadi rayonunun əkinçilik, heyvandarlıq, turizm, metallurgiya və tikinti sahələri üzrə kifayət qədər yüksək investisiya potensialı mövcuddur. İşğalda azad olunmuş bölgələrdə geniş miqyas taxıl əkininin planlaşdırılması

taxıl idxalında azadmalar ola biləcəyini proqnoz etməyə imkan verir. Həmçinin bol miqdarda yem bazası təmin edən təbii otlaq və biçənəklər heyvandarlıq xərclərini aşağı salmaqla ət istehsalının artmasına gətirib çıxarcağını da demək mümkündür.

İqtisadi rayonun ərazisində vardır ki, bunlar turizmin inkişafı üçün əhəmiyyətli hesab olunurlar. Lakin post müharibə dövrünün acı nəticəsi olaraq həmin ərazilərdə turizm üçün lazımi infrasrtuktur bir o qədər də ürəkaçan vəziyyətdə deyil. Otel, restoran, turzim mərkəzləri və s. infrastruktur layihələrinin həyata keçirilməsi turizm sektorunun inkişafı üçün atılmalı olan ilkin addımlardan olmalıdır. Turist cəlbi üçün yerinə yetirilməli olan bir digər məsələ müsbət reputasiya yaradılmasıdır. Bunun üçün KİV-lərdə həmin ərazilərin dağıntılara məruz qalmış hissələrini yox, azad olunduqdan sonra yeni tikilmiş və bərpa olunmuş görməli yerlərini və s. təbliğ etmək lazımdır.

Görülməli işlərin miqyasını nəzərə alsaq yerli şirkətlərlə yanaşı xarici tikinti şirkətləri də cəlb olunmalıdır. Bunun üçün xarici şirkətlərə vergi, gömrük, bank kreditləri üzrə güzəştli təkliflərin olunması investisiya potensialını artırar. Bu da öz növbəsində investisiyaların artmasına gətirib çıxarar.

“Araz Vadisi İqtisadi Zonası”-nın yaradılması güzəştli vergi, gömrük, bank kreditləri təklif etməklə xarici investorlar cəlb etməyə imkanı verəcək. Maliyyə axınları üzrə sərbəstlik və mənfəətin çıxarılması üzrə təhlükəsizlik təmin edildiyi təqdirdə investorları inamı artacaq investisiya potensialının güclənməsi ilə nəticələnəcək.

SWOT analizindən əldə olunmuş nəticələrə əsaslanan aşağıdakı təklifləri yerinə yetirərək Şərqi Zəngəzurun investisiya cəlbediciliyini artırmaq lazımdır:

- Müasir texnologiyalara əsaslanan və rəqabətə davamlı sənaye məhsullarının istehsal olunması
- Hava limanlarından tam səmərəli istifadə
- Nəqliyyat rabitələrinin işlək hala gətirilməsi
- Öz yurdalarına qayıdacaq vətəndaşlar üçün təşviqat işlərinin aparılması
- Xarici ölkələrdəki səfirliklər vasitəsi ilə investisiya mühiti barədə xarici investorları (xarici dövlət və özəl şirkətləri) məlumatlandırmaq

- Ərazini minalardan təmizləmək istiqamətində işlərin aparılması
- Ermənistanla sərhədin demarkasiya və delimitasiyası işinin başa çatdırılması
- Bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşma maddəsini də ehtiva edən sülh müqaviləsinin imzalanması

## ƏDƏBİYYAT SİYAHISI

1. Aslan I., Çınar O. & Kumpikaitė V. (2012): "Creating strategiesfrom tows matrix for strategic sustainable development of Kipaş Group", Journal of BusinessEconomics and Management, 13:1, 95-110 doi: https://doi.org/10.3846/16111699.2011.620134, Weihrich, H. (1982). The TOWS Matrix: a tool for situational analysis, Long Range Planning 15(2): 45–66. doi: https://doi.org/10.1016/0024-6301(82)90120-0;
2. Azman-Saini W.N.W, Baharumshah Ahmad Zubaidi, Law Siong Hook, (2010), "Foreign Direct Investment, Economic Freedom and Economic Growth: International Evidence", Article in Economic Modelling 27(5): 1079-1089 DOI:10.1016/j.econmod.2010.04.001;
3. Golaydo I.M., Soboleva Y. P., (2015), "Assessment and Management of Factors of the Regional Investment Potential", Asian Social Science 11(7), 240-251, http://dx.doi.org/10.5539/ass.v11n7p240;
4. Humbatova S. I., Tanriverdiev S. M., Mammadov I. N., Hajiyev N. G., (2020), "Impact of investment on GDP and non-oil GDP in Azerbaijan", Entrepreneurship and Sustainability Issues, 7(4), 2645-2663. http://doi.org/10.9770/jesi.2020.7.4(6);
5. Jumaev N.X., Rakhmonov D., Sulaymanov S. A. (2019), "Ways To Attract Investment With Assessment Of Investment Potential Of The Regions", International Journal of Economics, Commerce and Management Vol. VII, Issue 2, 664-673;
6. Kangas J., Kurttila M., Kajanus M., Kangas A., (2003), "Evaluating the management strategies of a forestland estate -the S-O Approach", Journal of Environmental Management; 69:349–58., Ganjali S., Shayesteh K., Ghasemi
7. A., Mohammadi H. (2014), "Environmental and strategic assessment of ecotourism potential in Anzali Wetland using SWOT analysis", Caspian Journal of Environmental Sciences, 12(1), 155-165;
8. Polyakova A.G., Akhmetshin, E.M., Pavlyuk, A.V., Meshkova, G.V., (2019), "Investment appeal of a region and its impact on investment inflows",

Entrepreneurship and sustainability issues 7(2), 1089-1097, http://doi.org/10.9770/jesi.2019.7.2(21) ;

9. Vershinina A.A., Zhdanova, Olga A; Maksimova, Tatiana P; Perepelitsa, Denis G., (2015), “The Formation of Indicator Framework for Effective Assessment of Investment Attractiveness of the Region”, International Journal of Economics and Financial Issues, Special Issue 5(3), 136-141.
10. atm.gov.az (Aqrar Tədqiqatlar Mərkəzinin rəsmi saytı)
11. www.economy.gov.az
12. http://www.zengilan-ih.gov.az
13. http://www.cabrail-ih.gov.az
14. http://www.qubadli-ih.gov.az
15. http://www.lachin-ih.gov.az
16. http://www.kelbecer-ih.gov.az
17. https://ereforms.gov.az
18. www.e-qanun.gov.az